# ELMİ TƏDQİQAT

Beynəlxalq Onlayn Elmi Jurnal

SCIENTIFIC RESEARCH

International Online Scientific Journal

aem.az

AEM

e-ISSN: 2789-6919

## ELM VƏ TƏHSİL TƏDQİQATLARI
## V RESPUBLİKA ELMİ KONFRANSI

## RESEARCH IN SCIENCE AND EDUCATION
## V REPUBLICAN SCIENTIFIC CONFERENCE

19.07.2024

# ELMİ TƏDQİQAT

**Beynəlxalq Onlayn Elmi Jurnal**

**İmpakt Faktor: 1.172**


---

## ELM VƏ TƏHSİL TƏDQİQATLARI
## V RESPUBLİKA ELMİ KONFRANSI


DOI: https://doi.org/10.36719/2789-6919/2024/V

# SCIENTIFIC RESEARCH

**International Online Scientific Journal**

**Impact Factor: 1.172**


---

## RESEARCH IN SCIENCE AND EDUCATION
## V REPUBLICAN SCIENTIFIC CONFERENCE

**(19.07.2024)**


**Bakı – Baku**

**2024**

Jurnal 01.03.2021-ci ildə
Azərbaycan Respublikası
Ədliyyə Nazirliyi
Mətbu nəşrlərin reyestrinə
daxil edilmişdir.
Reyestr № 4336

The journal is included
in the register of Press
editions of the Ministry
of Justice of the Republic
of Azerbaijan on
01.03.2021.
Registration № 4336

**Redaksiyanın ünvanı:**
Az1073, Bakı şəh.,
Mətbuat prospekti, 529,
“Azərbaycan” nəşriyyatı,
6-cı mərtəbə

**Editorial address:**
Az1073, Baku,
Mətbuat Avenue, 529,
“Azerbaijan” Publish
House,
6-th floor

**Tel.:** +994 50 209 59 68
+994 55 209 59 68
+994 99 807 67 68
+994 12 510 63 99

**e-mail:**
tedqiqat.rek@aem.az

## Beynəlxalq indekslər / International Indices

**e-ISSN: 2789-6919**
**DOI: 10.36719**

# TƏŞKİLAT KOMİTƏSİ

## Sədr

**Prof.Dr. Elçin İBRAHİMOV**, Azərbaycan Dillər Universiteti, Azərbaycan

## Sədr müavinləri

**Mübariz HÜSEYİNOV**, "Elmi Tədqiqat" Beynəlxalq Onlayn Elmi Jurnalın baş redaktoru/ Azərbaycan

**Assoc.Prof.Dr. Həbib MİRZƏYEV**, Azərbaycan Texniki Universiteti/ Azərbaycan

## Məsul katib

**Assoc.Prof.Dr. Sevinc SADIQOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan

## ÜZVLƏR

**Prof.Dr. Lalə İMAMƏLİYEVA**, Bakı Slavyan Universiteti/ Azərbaycan
**Prof.Dr. Hacı HƏSƏNOV**, AMEA, A.A.Bakıxanov adına Tarix və Etnologiya İnstitutu/ Azərbaycan
**Prof.Dr. Yaqut HACIYEVA**, Azərbaycan Tibb Universiteti/ Azərbaycan
**Prof.Dr. Rafiq ÇOBANOV**, Azərbaycan Tibb Universiteti/ Azərbaycan
**Prof.Dr. İlham ŞAHMURADOV**, AR ETN, Botanika İnstitutu/ Azərbaycan
**Prof.Dr. Eldar MƏSİMOV**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Prof.Dr. Fəxrəddin YUSUBOV**, Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**Prof.Dr. Cəlaləddin MƏMMƏDOV**, Azərbaycan Dövlət Aqrar Universiteti/ Azərbaycan
**Prof.Dr. Şahlar BABAYEV,** Azərbaycan Dövlət Aqrar Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Faiq ŞAHBAZLI**, ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci/ Azərbaycan
**Assoc.Prof.Dr. Könül HƏSƏNOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Elnurə ƏZİZOVA**, Azərbaycan İlahiyyat İnstitutu/ Azərbaycan
**Assoc.Prof.Dr. İslam HÜSEYNOV**, Dövlət Gömrük Komitəsinin Akademiyası/ Azərbaycan
**Assoc.Prof.Dr. İlkin ƏLİMURADOV**, Azərbaycan İlahiyyat İnstitutu/ Azərbaycan
**Assoc.Prof.Dr. İradə KƏRİMOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Lalə QOCAYEVA**, Gəncə Dövlət Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Asiman QULİYEV**, Azərbaycan Dövlət İqtisad Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Sevinc HƏMZƏYEVA**, Sumqayıt Dövlət Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Əlöysəd ƏSGƏROV**, Azərbaycan Dövlət Aqrar Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Aliyə RZAYEVA**, AR ETN, Təbii Ehtiyatlar İnstitutu/ Azərbaycan
**Assoc.Prof.Dr. Rəşad HÜSEYNOV**, Xəzər Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Qərənfil QULİYEVA**, Bakı Dövlət Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Asif MANAFOV**, AMEA, Zoologiya İnstitutu/ Azərbaycan
**Assoc.Prof.Dr. Şikar ƏHMƏDOV**, Əkinçilik Elmi-Tədqiqat İnstitutu/ Azərbaycan
**Assoc.Prof.Dr. Zabitə TEYMURLU**, Bakı Mühəndislik Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Elnarə MEHBALIYEVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Sadıq QARAYEV**, AR ETN, Botanika İnstitutu/ Azərbaycan

**Assoc.Prof.Dr. Rafiq İBRAHİMOV**, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Qəzənfər CƏFƏROV**, AR ETN, Kataliz və Qeyri-üzvi Kimya İnstitutu/ Azərbaycan
**Assoc.Prof.Dr. Allahverdi CƏFƏROV**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**Assoc.Prof.Dr. Toğrul XƏLİLOV,** AMEA, Naxçıvan bölməsi/ Azərbaycan
**Assoc.Prof.Dr. Şöhrət MƏMMƏDOVA**, Azərbaycan Dövlət Pedaqoji Universiteti/ Azərbaycan
**PhD Qəmər İSAYEVA**, Azərbaycan Texniki Universiteti/ Azərbaycan
**PhD Aygün BAYRAMOVA**, Milli Aerokosmik Agentliyi, Təbii Ehtiyatların Kosmik Tədqiqi İnstitutu/ Azərbaycan

## THE ORGANIZING COMMITTEE

### Chairman

**Prof.Dr. Elchin IBRAHIMOV**, Azerbaijan University of Languages/ Azerbaijan

### Deputy chairmen

**Mubariz HUSEYINOV**, Editor -in-chief of International Online Journal "Scientific Research"/ Azerbaijan

**Assoc.Prof.Dr. Habib MIRZAYEV,** Azerbaijan Technical University/ Azerbaijan

### Executive secretary

**Assos. Prof.Dr. Sevinj SADIGOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan

### MEMBERS

**Prof.Dr. Lala IMAMALYYEVA**, Baku Slavic University/ Azerbaijan
**Prof.Dr. Haji HASANOV**, ANAS Institute of History and Ethnology named after A.A. Bakikhanov/ Azerbaijan
**Prof.Dr. Yagut HAJIYEVA**, Azerbaijan Medical University/ Azerbaijan
**Prof.Dr. Rafig CHOBANOV**, Azerbaijan Medical University/ Azerbaijan
**Prof.Dr. Ilham SHAHMURADOV**, Institute of Botany of ANAS / Azerbaijan
**Prof.Dr. Eldar MASIMOV**, Baku State University/ Azerbaijan
**Prof.Dr. Fakhraddin YUSUBOV**, Azerbaijan Technical University/ Azerbaijan
**Prof.Dr. Jalaladdin MAMMADOV**, Azerbaijan State Agrarian University/ Azerbaijan
**Prof.Dr. Shahlar BABAYEV,** Azerbaijan State Agrarian University/ Azerbaijan
**Assoc.Prof.Dr. Faig SHAHBAZLI**, College of Industry and Technology under ASSU/ Azerbaijan
**Assos.Prof.Dr. Konul HASANOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assos.Prof.Dr. Elnura AZIZOVA**, Azerbaijan Institute of Theology/ Azerbaijan
**Assoc.Prof.Dr. Islam HUSEYNOV**, Academy of the State Customs Committee/ Azerbaijan
**Assos.Prof.Dr. Ilkin ALIMURADOV**, Azerbaijan Institute of Theology/ Azerbaijan
**Assos.Prof.Dr. Irada KARIMOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assoc.Prof.Dr. Lalə QOCAYEVA**, Gəncə Dövlət Universiteti/ Azərbaycan
**Assos.Prof.Dr. Asiman GULIYEV**, Azerbaijan State University of Economics/ Azerbaijan
**Assos.Prof.Dr. Sevinj HAMZAYEVA**, Sumgayit State University / Azerbaijan
**Assos.Prof.Dr. Aloysad ASGAROV**, Azerbaijan State Agrarian University/ Azerbaijan
**Assos.Prof.Dr. Aliya RZAYEVA**, MSE of the Azerbaijan Republic, Institute of Natural Resources / Azerbaijan
**Assos.Prof.Dr. Rashad HUSEYNOV**, Khazar University/ Azerbaijan
**Assos.Prof.Dr. Garanfil GULIYEVA**, Baku State University/ Azerbaijan
**Assos.Prof.Dr. Asif MANAFOV**, Institute of Zoology and Dendrology of ANAS/ Azerbaijan
**Assos.Prof.Dr. Shikar AHMADOV**, Azerbaijan Research Institute of Crop Husbandary/ Azerbaijan
**Assoc.Prof.Dr. Zaita TEYMURLU**, Baku Engineering University/ Azerbaijan

**Assos.Prof.Dr. Elnara MEHBALIYEVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assoc.Prof.Dr. Sadiq GARAYEV**, AR ETN, Institute of Botany/ Azerbaijan
**Assoc.Prof.Dr. Rafik IBRAHIMOV**, Azerbaijan State Oil and Industry University/ Azerbaijan
**Assos.Prof.Dr. Gazanfar JAFAROV**, MSE of the Azerbaijan Republic , Institute of Catalysis and Inorganic Chemistry / Azerbaijan
**Assoc.Prof.Dr. Allahverdi JAFAROV**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**Assos.Prof.Dr. Toghrul KHALILOV,** Nakhchivan branch of ANAS
**Assoc.Prof.Dr. Shohrat MAMMADOVA**, Azerbaijan State Pedagogical University/ Azerbaijan
**PhD Gamar ISAYEVA**, Azerbaijan Technical University/ Azerbaijan
**PhD Aygun BAYRAMOVA,** Azerbaijan National Areospace Agency, Institute for Space Research of Natural Resources/ Azerbaijan

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 7-10
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 7-10
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

# HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

# HUMANITIES AND SOCIAL SCIENCES

**Vahid Məmmədov**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
vahidmemmedli31@gmail.com

## AZƏRBAYCAN MUSİQİ TARİXİNDƏ VƏ İNKİŞAFINDA BƏSTƏKAR SÜLEYMAN ƏLƏSGƏROVUN ROLU

***Açar sözlər:*** *Azərbaycan, bəstəkar, xalq, musiqi, məktəb*
***Keywords:*** *Azerbaijan, composer, people, music, school*

Azərbaycan musiqi tarixində və inkişafında Respublikanın xalq artisti, Dövlət mükafatı laureatı, istedadlı dirijor, tanınmış pedaqoq, ictimai xadim, professor S.Ələsgərov özünəməxsus bir yer tutan bəstəkarlardan biridir. Onun yaradıcılığı Azərbaycan professional musiqi tarixinin parlaq bir səhifəsidir.

Xalq yaradıcılığından bəhrələnən bəstəkarın özünəməxsus dil üslubu, fərdi yaradıcılıq prinsipləri və xüsusiyyətləri onun bütün əsərlərində diqqəti cəlb edir.

Musiqişünaslar S.Qasımova, N.Bağırov onun musiqisi haqqında yazırlar: “S.Ələsgərov musiqisi üçün şən, sevindirici əhval-ruhiyyə, emosionallıq, fikrin səmimiyyəti xasdır. Günün aktual məsələləri, müasirlərimizin həyatı, onların arzu və istəkləri, Vətənin tərənnümü, adamlarımızın əmək nailiyyətləri - bütün bunlar S.Ələsgərovun yaradıcılığında öz əksini tapır. Xalq yaradıcılığına xas olan intonasiyalardan, ritmlərdən geniş istifadə edən S.Ələsgərov folklor sənətinin təkraredilməzliyini, orijinallığını öz əsərlərində səmimi şəkildə ifadə etməyə çalışır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Bu işdə ona xalq musiqiçiləri ilə daima əlaqəsi xeyli kömək edir."

Süleyman Əyyub oğlu Ələsgərov 1921-ci il fevral ayının 22-də Şuşada anadan olmuşdur. Şəhərin musiqi həyatı uşaqlıqdan onda bu sənətə dərin maraq oyatmışdır. Yay aylarında Şuşanın hər guşəsindən tar, qaval səsi gələrdi. Məşhur xanəndələrimizdən Seyid Şuşinski, Xan Şuşinski və başqaları Cıdır düzündə məclis quraraq ayrı-ayrı muğamları, xüsusilə "Qarabağ şikəstəsi"ni və təsnifləri böyük şövqlə oxuyardılar. Başqa oxuyanlar və musiqi həvəskarları isə onların ətrafına toplaşardılar. Belə musiqi məclislərindən sonra o, müxtəlif xalq havalarını, mahnı və təsniflərin melodiyasını zümzümə edərdi. O zaman həmin havalardan bir neçəsini tütəkdə çalmağı da öyrənmişdi.

1933-cü ildə Şuşada musiqi texnikumu təşkil olunanda balaca Süleymanın sevinci yerə-göyə sığmadı. Musiqi məktəbini indi məşhur skripkaçı kimi tanıdığımız Azərbaycan SSR əməkdar artisti, professor Azad Əliyevin atası Həmzə Əliyev təşkil etmişdi.

S.Ələsgərov 1935-ci ildə texnikumun tar sinfinə daxil olur. Onun tar ixtisası üzrə ilk müəllimi mərhum bəstəkarımız Qəmbər Hüseynli idi. Lakin bir ildən sonra Q.Hüseynlinin Gəncəyə getməsilə əlaqədar olaraq onu Rəsul Əsədov əvəz edir. Süleyman bir neçə il onun sinfində oxuyur.

S.Ələsgərovun həyatı və yaradıcılığı, geniş, çoxcəhətli fəaliyyəti ilə yaxından tanış olduqdan sonra belə qənaətə gəlirsən ki, o, sözün həqiqi mənasında zəhmətkeş sənətkardır. Harada, hansı mədəni-maarif və təhsil müəssisəsində çalışmasından asılı olmayaraq, qarşısına bir mühüm məqsəd qoymuşdur:

S.Ələsgərov 1948-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsini professor B.İ.Zeydmanın sinfində fərqlənmə diplomu ilə bitirdikdən sonra 1948-49-cu illərdə Bakı orta ixtisas musiqi məktəbinə rəhbərlik etmişdir. İstər

1948-49-cu və istərsə də 1952-54-cü illərdə həmin məktəbdə direktor olduğu zaman çalışmışdır ki, məktəbdə təhsil alan gənclər öz keyfiyyəti, yüksək mədəni professional səviyyəsi ilə fərqlənən pedaqoq musiqiçi kimi yetişsinlər, böyüməkdə olan nəslin musiqi-estetik tərbiyəsi ilə hərtərəfli, müntəzəm məşğul olmağı bacarsınlar.

Bəstəkar ümumtəhsil məktəbləri üçün yazılan bir sıra musiqi dərsliklərinin müəllifi və elmi redaktoru olmuşdur.

1944-cü ildə S.Ələsgərovu Azərbaycan Dövlət Musiqili Komediya Teatrına dəvət edirlər. O, 1948-ci ilə kimi teatrın baş dirijoru və musiqi hissə müdiri vəzifəsində çalışır.

S.Ələsgərov teatrın simfonik orkestrinə rəhbərlik etdiyi müddətdə kollektivin tərkibinin təkmilləşməsinə, hər bir musiqiçinin mükəmməl ifaçılıq texnikasına yiyələnməsinə, orkestrin ifaçılıq məharətinin üzə çıxmasına çalışırdı. Çox keçmir ki, kollektiv respublikamızda və ittifaq miqyasında geniş şöhrət qazanır.

Azərbaycan xalq musiqi sənətinin incəliklərini çox gözəl duyan, onun ayrı-ayrı janrlarının daha mükəmməl öyrənilməsi üçün geniş iş aparan bəstəkar xalqımızın böyük yaradıcılıq məhsulu olan ayrı-ayrı çalğı alətlərinin bədii-texniki imkanlarını nümayiş etdirən orijinal sənət nümunələri yaratmışdır.

“Cəngi”, “Rəqs”, “Marş”, “Fantaziya”, “Sözsüz mahnı”, “Dostluq süitası” və s. əsərlər Azərbaycan xalq çalğı alətləri orkestri üçün bəstələnmişdir. S.Ələsgərov bu əsərləri yaradarkən Azərbaycan xalq musiqi intonasiyalarından, ayrı-ayrı xalq musiqi nümunələrindən və onların zövq oxşayan elementlərindən ustalıqla istifadə etmiş, dinləyicilərin, musiqisevərlərin rəğbətini qazanmışdır. Onun bəstəkarlıq fəaliyyətində xalq musiqisinə məftunluq həmişə parlaq şəkildə özünü göstərmişdir. Bəstəkar xalq malını yaradıcılığının ayrı-ayrı nümunələrinin melodiyalarını nota köçürmüş, onları əlvan boyalarla işləmişdir. “Anacan”, “Gəl-gəl”, “Ay bülbüllər”,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

“Girdim yarın bağçasına”, “Bazarda alma”, “Getdi yar”, “Şirvanın yolları”, “Ay qız, qadan mən allam”, “Aman ovçu” və s. xalq mahnılarını misal göstərmək olar.

S.Ələsgərovun musiqisi yüksək professionallığı, kamil forması, gözəl melodiyası, rəngarəng ritm çalarları ilə fərqlənir. Bu musiqi irsi həmişə yaşayacaq, dinləyicilərə estetik və etik zövq aşılayacaq, tədris və konsert repertuarını həmişə zənginləşdirəcəkdir.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 11-14
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 11-14
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Gunel Allahverdiyeva**
Azerbaijan State Pedagogical University
Doctor of Philosophy in Philology
gunel2009@mail.ru

# RITUAL CONCEPTS IN AZERBAIJANI AND RUSSIAN LANGUAGES

***Keywords:*** *ceremony, concept, Azerbaijani language, Russian language, culture*
***Açar sözlər:*** *mərasim, konsept, Azərbaycan dili, rus dili, mədəniyyət*

Modern linguistics aims to determine the national and cultural content of linguistic forms. Linguistic research proceeds from an understanding of the essential differences between the signification of lexical meaning and historical and cultural representations, which alone can make meanings linguistic realities, deprive them of an abstract character, and concretize. In modern linguistics, there is also the term concept, which, as various studies show, is fundamental. In our opinion, the concept has a character intermediate between lexical meaning and background information. The concept differs from the lexical meaning of the word because it contains cultural information. Moreover, the concept also includes cultural information. By cultural information we mean information about the very realities of material and spiritual culture. By cultural information, we mean a specific understanding of those cultural phenomena that are called in the language by certain words. Thus, concepts include both cultural and cultural information. As for background information, it includes a wide context of knowledge about a thing in the space of national culture. The signification of

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

lexical meaning, as it is known, is an elementary logical concept (Ufimtseva, 1986: 88). It is this that is reflected in the explanatory dictionaries. The signification of the meaning of the Russian word wedding in the Dictionary of S. I. Ozhegov is given as a “marriage ceremony” (Ozhegov, 1990: 698). As you can see, the dictionary entry does not actually contain a definition of meaning. There is no definition here, the article does not present the essential features characteristic of a wedding, making the marriage ceremony a wedding. In fact, the dictionary entry simply refers us to another word – the word marriage. The meaning of the word marriage in the same dictionary is defined as follows: “MARRIAGE is a family relationship between a man and a woman; marital relations” (Ozhegov, 1990: 62).

Marriage is a family relationship, and a wedding is a marriage ceremony. It turns out that a wedding is a rite of family relations. In this case, the wedding should be understood as a kind of ritual game, it is at the game level that reproduces family relations or marital relations. In fact, of course, a wedding is something completely different. By wedding, all peoples understand fun, feasting, dancing and songs, a celebration or celebration of the entry of a young man and girl into a marital relationship. Another meaning of the wedding can be noted. Firstly, a wedding is a celebration of the formation of a new family. Secondly, the wedding fun is in a sense magical in nature. In fact, the article from the Dictionary of S.I.Ozhegov is very instructive. Behind each of these words, lexical units, there is background information that is updated in the cultural space of the people where the wedding is being discussed. In modern linguistics, there are different ideas about the phenomenon that is defined as background information, but in general, ideas about time and space are always updated, this is information about a country and people, their culture in a

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

certain time period. In contrast to the horizontal, textual, context, the cultural context is defined as a vertical context. Moreover, scientists sometimes talk about a global vertical context that characterizes the mentality of a nation (Ozhegov, 1990: 97-98). In a linguistic sense, background information is most often understood as the necessary minimum of cultural information that makes the text really understandable. You can't think about updating the full amount of background information when reading any text. At the same time, this opportunity should not be overlooked. Therefore, we can talk about different levels of perception of the text, of course, depending on the degree of familiarity with the culture in which the text is written. Thus, at the level of lexical meaning, wedding (wedding, toy) means the same thing. This is a marriage ceremony, or a marriage ceremony, and the corresponding fun, celebration accompanying this marriage. At the level of background information, the wedding (toy) lexeme actualizes the entire information space, which includes all fragments of marriage and matrimony. Everything that happened from the moment of acquaintance to the wedding, and everything that happens according to the ritual after the wedding. As for the concept of “wedding”, it includes only national and cultural ideas about the wedding itself, i.e. about the specified fun in honor of the wedding. Research shows that different peoples have very different specific ideas about weddings. It is these representations that form the conceptual basis of the corresponding lexical units. Concepts make up the conceptual sphere, which determines the nature of the national-linguistic picture of the world. In the language system, this is reflected in the consistency of lexical units. The word wedding organizes a conceptual field around itself. For example, the wedding lexeme in Russian attracts words such as cheerful, rich, memorable, play (wedding), celebrate, celebrate

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

(anniversary), etc. into its sphere. However, the scope of "wedding" also includes a wide range of concepts associated with this concept. These are concepts such as "matchmaking", "engagement", "engagement", "matchmakers", etc. Moreover, these concepts form, as it were, the closest circle of concepts that are lexically related to the concept of "wedding". A further circle includes seemingly ordinary words, which acquire a very special meaning in the field of "wedding" semantics. For example, words and phrases such as pay attention, notice, get to know, etc. As a rule, these words are read in the context of culture.

## References

1. Ozhegov, S.İ. (1990). Slovar russkoqo yazika. Moskva, Russkiy yazik.
2. Ufimtseva, A.A. (1986). Leksicheskoye znacheniye. Prinstsip semasiologiceskoqo opisaniya leksiki. Moskva: Nauka.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 15-18
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 15-18
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Sevinc Əsgərova**
Naxçıvan Dövlət Universiteti
sənətşünaslıq üzrə fəlsəfə doktoru
Sceferova696@gmail.com
Orcid: 0000-0001-6676-2604

# AZƏRBAYCAN BƏSTƏKARI CÖVDƏT HACIYEV YARADICILIĞININ ÜMUMİ XASİYYƏTNAMƏSİ

***Açar sözlər:*** *Azərbaycan, bəstəkar, xalq musiqisi, opera, simfonik*

***Keywords:*** *Azerbaijan, composer, folk music, opera, symphonic*

Azərbaycan peşəkar bəstəkarlıq yaradıcılığı Azərbaycan bəstəkarlarının öz yaradıcılıq təcrübələrində doğma musiqi ənənələrinə, onun janr və formalarına istinad edərək ümumbəşəri musiqinin nailiyyətlərindən səmərəli istifadə edərək Azərbaycan musiqisini daha da inkişaf etdirmələri ideyasını ifadə edir (İsmayılov, 1984: 76).

Azərbaycan bəstəkarlıq məktəbinin görkəmli nümayəndələrindən biri Cövdət Hacıyev təkrarolunmaz ifadə tərzi və bəstəkarlıq üslubu nümayiş etdirən sənətkarlardandır. Müxtəlif janrlara müraciət edən C.Hacıyevin yaradıcılığının əsas hissəsini simfonik janrda yazılmış əsərlər təşkil edir. Təsadüfi deyil ki, o, Azərbaycan simfonizminin yaradıcılarından hesab olunur. C.Hacıyevin yaratdığı zəngin obrazlar sferası fərdiliyi, özünəməxsus inkişaf prinsipi ilə diqqəti cəlb edir. Onun əsərlərində keçmiş ilə müasirlik zəngin çalarlarla sintez olunur. Bəstəkar xalq musiqisi sahəsində sahib olduğu bilik və təcrübələrlə əsərlərində əzəmətli milli obraz, eyni zamanda müasirliyin möhtəşəm portretini yaradır.

C.Hacıyevin bir bəstəkar kimi yetişməsində Üzeyir Hacıbəylinin olduqca böyük rolu var. C.Hacıyev Azərbaycan xalq

musiqisinin əsaslarını Üzeyir bəydən öyrənmişdir. Bəstəkar tələbəlik illərini böyük həvəslə Azərbaycan xalq musiqisi və onun müxtəlif istiqamətlərini dərindən öyrənərək, bu biliklərdən zəngin mənbə kimi istifadə etmək işinə sərf etmişdir. Bu illərdə o, Bülbül tərəfindən yaradılan və xalq musiqisi nümunələrinin toplanılmasında əhəmiyyətli işlər görən Elmi Tədqiqat Musiqi Kabinetində digər gənc bəstəkarlarla birlikdə fəaliyyət göstərir, Azərbaycan xalq musiqisinin dahi sənətkarları ilə ünsiyyətdə olur, xalq musiqisi nümunələrini nota alır.

C.Hacıyevin ilk əsərləri XX əsrin 30-cu illərində yaranmağa başlamışdır. O, 1936-cı ildə “Sosialist Azərbaycanı”, 1937-ci ildə rus şairi A.S.Puşkinin ölümünün 100 illiyinə “Sibirə məktub” simfonik poemalarını və “Simfonietta” əsərini yazır. C.Hacıyev 1937-ci ildə folklor nümunələri əsasında üçlü orkestr üçün “Azərbaycan süitası”nı bəstələyir. Azərbaycan folklorunun incəliklərini özündə birləşdirən bu əsər daxili inkişafı, üçhissəli forması ilə milli süita janrının ilk ən gözəl nümunələrindəndir.

1945-ci ildə yaradıcılıq sahəsində yeni axtarışlarla məşğul olan C.Hacıyev Q.Qarayevlə birlikdə “Vətən” operasını yazır. Əsər ilk dəfə həmin il 4 mayda M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrında səhnələşir.

“Vətən” operası müharibə mövzusunda maraqlı əsərlərdən biri idi. “Vətən” operasının əhəmiyyətini vurğulayan A.Tağızadə yazır: “Vətən”-post-sovet incəsənətinin hərbi dövrünün qəhrəmani-vətənpərvərlik mövzusu istiqamətini əks etdirirdi. Müasir mövzunun, xüsusən belə yaxın olan mövzuların opera janrında təcəssüm etdirilməsi çox çətin idi. Gənclərin müharibə haqqında milli opera yaratmaq bacarıqları xüsusilə əhəmiyyətli idi. Eyni zamanda təkcə operanın ayrı-ayrılıqda qəhrəmanları deyil, həm də bütövlükdə kütlələri hərəkətə gətirən böyük vətənpərvərlik ideyası vətəndaşcasına düşünən bəstəkarların

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

diqqətini cəlb etmişdi və operanın dramaturgiyası üçün əsasa çevrilmişdi. Bu, operanın dramaturji konsepsiyasının mahiyyətini təşkil edərək, janr istiqamətini müəyyənləşdirmişdir" (Musiqi tarixi, 2017: 143).

1945-ci ildə müharibə bitdikdən sonra Moskva Konservatoriyasında D.D.Şostakoviçin sinfində təhsilini davam etdirən C.Hacıyev D.D.Şostakoviçin rəhbərliyi ilə 1947-ci ildə III simfoniyasını yazır. 50-ci illərdə Azərbaycanda heç səslənməyən bu simfoniya 1962-ci ildə nəşr edilir. C.Hacıyev 1949-cu ildə S.Rüstəmin şeirləri əsasında dörd hissəli oratoriya yazır. 1950-cı ildə isə o, Azərbaycan fortepiano musiqisində ballada janrına müraciət edən ilk bəstəkar olaraq "Ballada" əsərini yazır. XX əsrin 40-50-ci illərində C.Hacıyevin Azərbaycan simfonizminin inkişafında əhəmiyyətli iz buraxan "Sülh uğrunda" simfonik poeması yaranır. Əsər ilk dəfə 1951-ci ildə Niyazinin dirijorluğu ilə Azərbaycan Dövlət Filarmoniyasının Simfonik orkestrinin ifasında səslənib.

C.Hacıyev 1952-1956-cı illərdə insan, onun emosional hiss və həyəcanları, şəxsiyyət problemlərinin ifadə olunduğu IV simfoniyası üzərində işləyir, fortepiano musiqisi janrında 1956-cı ildə Sonata, 1957-ci ildə Skertso əsərlərini, Nizaminin "Ey gül" qəzəli əsasında Azərbaycan xor musiqisinin əzəmətli nümunələrindən birini yazır. C.Hacıyev 1957-1969-cu illərdə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının rektoru işləyir.

Bu vaxt onun təşəbbüsü ilə konservatoriyada kamera ansamblı kafedrası fəaliyyətə başlayır, Azərbaycan xalq musiqisi kafedrasının işi yenidən bərpa olunur, konservatoriyanın müəllim heyətində savadlı musiqi xadimləri fəaliyyət göstərməyə başlayır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

## Ədəbiyyat

1. İsmayılov, M.S. (1984). Azərbaycan xalq musiqisinin janrları. Bakı: İşıq, 1984, 100 s.
2. Azərbaycan musiqi tarixi. (2017). II cild. Elm nəşriyyatı, Bakı.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 19-21
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 19-21
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Sevda Məsimzadə**
Bakı Dövlət Universiteti
dissertant
sevdamesimzade@mail.ru

# YENİYETMƏLİK DÖVRÜNDƏ EMOSİONAL İNTELLEKTİN ROLU

***Açar sözlər:*** *emosiya, hisslər, intellekt, özgüvən, özünüqiymətləndirmə, yeniyetmə*

***Keywords:*** *emotion, feelings, intellect, self-confidence, self-assessment, teenager*

Emosional intellekt (EI) yeniyetməlik dövründə EI öz hisslərini və başqalarının emosiyalarını tanımaq, anlamaq, idarə etmək və sağlam münasibətlər qurmaq bacarığını ehtiva edir. Yeniyetməlik dövründə beyində emosional və sosial davranışa təsir edən əhəmiyyətli dəyişikliklər baş verir. Bu dəyişikliklər şəxsiyyətin sosial bacarıqlarının inkişafında mühüm əhəmiyyət kəsb edir (Bayramov, Əlizadə, 2002: 291).

Tədqiqatın məqsədi. Yeniyetməlik dövründə emosional intellektin (EI) rolu ilə bağlı araşdırmalar onun yeniyetmə həyatının müxtəlif aspektlərinə, o cümlədən sosial münasibətlər, öyrənmə, psixi sağlamlıq və uyğunlaşmaya mühüm təsirini ortaya qoyur. Bu tədqiqatlar emosional intellekt üzrə təlim proqramlarının məktəb kurslarına daxil edilməsinin, həmçinin, yeniyetmələrə ailə və sosial mühitlərdə resursların və dəstəyin təmin edilməsinin vacibliyini vurğulayır. Gənc yaşdan emosional intellektin inkişafı yeniyetmənin daha sağlam və uğurlu inkişafına töhfə verir.

Emosional zəkanın öyrənilməsi onun komponentlərini ölçmək və qiymətləndirmək üçün müxtəlif metodları əhatə edir. Testlər, tapşırıqlar, müsahibələr və yeniyetmələrin davranış-

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 19-21
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 19-21
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

larını müşahidə etməklə emosional zəkanın yeniyetmələrin həyatındakı rolunu araşdırdıq.

Yeniyetmələrin şəxsiyyəti, özünə hörməti, münasibətləri və həyatlarının digər aspektləri ilə bağlı güclü emosiyalar yaşaya biləcəyini yaxşı bilirik. Burada yeniyetməlikdə emosional zəka ilə bağlı bir neçə aspekt var ki, bunları tədqiq edərək gözdən keçirək. Belə ki, tədris vaxtı 9-cu sinif şagirdləri arasında aparılan müşahidə zamanı 25 şagird arasında belə bir nəticəyə gəlmək olar ki, emosional intellekt şagirdlərdə aşağıdakı halları izləməyə imkan verir.

- Özünüdərketmə - yeniyetmələrin öz emosiyalarını anlamaları deməkdir. Bu da onlara ehtiyaclarını, dəyərlərini və istəklərini müəyyən etməyə kömək edir.
- Emosiyaların idarə olunması – bacarıqlarının inkişafı yeniyetmələrə gündəlik həyatda stress, münaqişə və təzyiqin öhdəsindən gəlməyə kömək edir.
- Empatiya – sosial qarşılıqlı əlaqənin vacib aspektidir. Yaxşı emosional intellektə malik olan yeniyetmələr dostlarının, ailəsinin və başqalarının hisslərini və emosiyalarını daha yaxşı başa düşə bilirlər.
- İnkişaf etmiş EI olan yeniyetmələr yüksək keyfiyyətli şəxsiyyətlərarası münasibətlər qurmaqda daha uğurlu olurlar. Onlar münaqişənin öhdəsindən daha yaxşı gəlir və daha effektiv əməkdaşlıq edə bilirlər.
- İnkişaf etmiş emosional intellekt yeniyetmələrin hərəkət, dəyişən mühit və ya yeni sosial vəziyyətlər kimi həyat dəyişikliklərinə daha yaxşı adaptasiya olmalarına kömək edir.

Nəticə. Tədqiqatların nəticəsi olaraq qeyd edə bilərik ki, yeniyetmələrdə yüksək emosional intellektin daha uğurlu olması şəxsiyyətlərarası münasibətlərlə əlaqəlidir. İnkişaf etmiş EI olan yeniyetmələr başqalarının duyğularını daha yaxşı başa düşə bilirlər və həmçinin, öz emosiyalarını effektiv şəkildə ifadə edə bilirlər.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Emosional intellekt daha yaxşı akademik nəticələrlə əlaqələndirilir. Emosiyalarını effektiv şəkildə idarə etməyi bacaran yeniyetmələr imtahan stressinin öhdəsindən daha yaxşı gəlir, diqqətlərini cəmləşdirir və təhsil qruplarında daha uğurlu əməkdaşlıq edirlər. Bəzi tədqiqatlar göstərir ki, emosional zəkanın aşağı səviyyəsi yüksək səviyyədə narahatlıq, depresssiya və digər psixi sağlamlıq problemləri ilə əlaqələndirilə bilər (Osho, 2017:14).

Emosional intellekt yeniyetmənin problemləri həll etmək və çətin vəziyyətlərin öhdəsindən gəlmək qabiliyyətinə də təsir edir. Emosiyaları effektiv idarə etmək bacarığı onlara dəyişikliklərə və çətinliklərə daha yaxşı uyğunlaşmağa kömək edir (Goulman, 2009: 478).

## Ədəbiyyat

1. Bayramov, Ə.S., Əlizadə, Ə.Ə. (2002). Psixologiya. Bakı, 391 s.
2. OSHO. (2017). Emosiyalar. Bakı, s.14-15.
3. Goulman, D. (2009). Ehmotsional'nyi intellekt. M: AST, 478 c.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 22-25
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 22-25
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Samirə Həsənova**
Bakı Slavyan Universiteti
doktorant
kentavr@yandex.com

# RUS SENTİMENTALİZMİNİN SƏCİYYƏVİ CƏHƏTLƏRİ. N.M.KARAMZİNİN "ZAVALLI LİZA" ƏSƏRİ

***Acar sozlər***: *sentimentalizm, Karamzin, "Zavallı Liza", rus ədəbiyyatı, ədəbi proses*

***Keywords***: *sentimentalism, N.M.Karamzin, "Poor Liza", Russian literature, literary process*

XVIII əsr rus ədəbiyyatının sentimentalizm dövründən söhbət acarkən onun cox vacib sayılan özünəməxsus xüsusiyyətlərini qeyd etmək zəruridir. Rus sentimentalizminin Qərbi Avropa ədəbiyyatı ilə əlaqəsi olsa da, özünə məxsus inkişaf etmişdir. Rus yazıçıları Qərbi Avropa sentimentalizmini özününkiləşdirmişdir, yəni Qərbi Avropa sentimentalizminin mexaniki kopyası deyil. O, Qərbi Avropa sentimentalistlərinin təsiri altında sərbəst formalaşmış ədəbi cərəyandır. Bu ədəbi proses klassik rus ədəbiyyatında dərin iz qoyub və Rusiyanın gələcək ədəbi inkişafina ciddi təsir etmişdir. Sentimentalizmin öyrənilməsinin cətinliyi onun iki cərəyanın klassisizm və romantizm arasında keçici rolda olması ilə bağlıdır. Rus sentimentalistləri insanda "beynin tərbiyəsinə və ürəyin maariflənməsinə" böyük önəm verirdilər (Berkov, 1964: 60). Bu da onları Avropa sentimentalistlərindən fərqləndirən cəhətlərdən biridir. XVIII əsr rus ədəbiyyatının önündə duran maarifpərvər ideyalar nadanlıqla mübarizə, elmi biliklərin yiyələnməsinin təbliğini sentimentalistlər də öz yaradıcılıq-larında qoruyub saxladılar. N.M.Karamzinin, İ.Muravyovun və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

onların əhatəsinin mövqelərində əgər zəkanı, müasirliyi önə çəkirdilərsə, bununla bərabər antik yazıçılara da rəğbətlə yanaşırdılar. Antik yazıçılarda onları cəlb edən sadəlik və təbiilikdir. Bununla yanaşı, rus sentimentalistləri ədəbiyyatda psixoloji nəsrin yaranmasına səbəbkar oldular və bununla da yeni ənənələrin yaranmasına imkan yaratdılar. Bu dövrdə yaranan ənənələr daha sonra XIX əsrdə davam etdi və daha da genişləndi. Karamzinin yaradıcılığını buna nümunə kimi göstərmək olar.

Hekayə janrının ustası olan "Karamzinin yazdığı lirik oçerklərində, psixoloji etüdlərindən, avtobioqrafik romanlarından gələcək nəsil yazıcılar A.Bestujev-Marlinski, Puşkin, Lermontov və 1830-cu ilə kimi yazıçılar bəhrələnmişdir" (Berkov, 1964: 55).

Rus ədəbiyyatında sentimentalizm cərəyanının yaranması ilə bərabər yeni ədəbi janrlar təsdiq olundu: "Həssas romanlar, həssas povestlər". Yeni janr formalarına maraq bu səbəbdən yarandı ki, onlar ədəbiyyatda qoyulan yeni məqsədləri həll etməyə yararlı idi. Beləliklə, ədəbiyyatda yeni qəhrəman obrazı yarandı. Bu obraz "böyük ürəyə malik sadə insan oldu" (Yakovlev, 1995: 20). Rus ədəbiyyatında bu, qəhrəman kəndli obrazı oldu. Bundan əvvəl əgər bu obraz komik və ikinci dərəcəliydisə, sentimentalistlər bu obrazı baş qəhrəman etdilər. Yazıçılar ilk növbədə sadə insanın daxili aləmini açmağa calışdılar. F.F.Kanunova öz tədqiqatlarında yazırdı: "Həssas nəsr klassisizmin varisi oldu, lakin burda insan xeyirxah və nöqsanlıdır" (Kanunova, 1965: 10).

Ümumiyyətlə, sentimental cərəyanın təsiri altında yazan yazıçılar əsərlərini təqdim etmək üçün yeni formalar axtarışında idilər. Əsərlərini ifadə etdikləri bu formalar qəhrəmanın dərin psixoloji halını oxucuya təqdim etməliydi. Erkən sentimental əsərlərin müəllifləri qəhrəmanın hisslərini göstərmək üçün dolayı yollarla, üz cizgilərinin hərəkəti ilə,

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

spesifik davranışlarla oxucuya catdırmağa çalışırdılar. Rusiyada sentimentalizm özünəməxsus formada büruzə verdi. Buna səbəb Qərbi Avropa ənənələrinin cəmiyyətə güclü təsir etməsi idi. Bununla yanaşı, rus cəmiyyəti milli ədəbi ənənələrini də qoruyub saxlaya bilmişdir. N.M.Karamzinin əsərlərinin icində ən məhşuru "Zavallı Liza"-dır. Bu povest çap olduğu andan oxucular tərəfindən sevilmişdir. Bu əsərdə müəllif munasibəti açıq aydın görünür.

Karamzinin "Zavallı Liza" əsərindən sonra onun müasirləri onu təqlid edərək, əsərlər yaratdılar. A.Popov "Zavallı Liliya", A.Y.İzmaylov "Zavallı Maşa", Q.P.Kamenyov "Sofiya", P.İ.Şalikov "Qaranlıq meşə, ya da incəlik abidəsi" və başqaları. Bu əsərlərdə Karamzinin yaradıcılığında qoyduğu məsələlərin eynisini, bəzən davamını tapmaq olar. Hətta XIX əsrin əvvəllərində Karamzinin əsərlərinə oxsar əsərlər yaratmağa can atan müəlliflər var idi. Svecinskiy "Aldanmış Qenriyetda", Q.P.Kaenyov "İnna", N.P.Milonov "Yazıq Mariyanın hekayəsi". Bu əsərlərin hamısında süjet xətti oxşardı, həssas baş qəhrəman əziyyət cəkir. Qeyd olunan əsərlər təbiətin təsviri ilə başlayır. Təbiət qəhrəmanın əhvalına uyğun olaraq dəyişir.

Bu əsərlərdə qəhrəmanın biri şəhərdən, o biri isə kənddəndir. Düzdür, qeyd etmək lazımdır ki, heç də bütün əsərlər Karamzinin "Zavallı Liza"-sı ilə eyni deyil. Məsələn, A.E.İsmaylovun "Zavallı Maşa" əsərində Maşa Karamzinin Erastından fərqli olaraq, sevgilisinin ölümündən sonra kədərdən ölür. "Zavallı Liza" povestində müəllif öz həssas münasibətini, mərhəmətini əsər boyu büruzə verir, "Zavallı Maşa" əsərində isə İsmaylov çox münasibət bildirmir ki, oxucunun fikrinə təsir etməsin. Q.D.Kamenyovun "İnna" əsərindəki süjet xətti Karamzinin "Zavallı Liza" əsəri ilə eynidir. Əsər kilsənin təsviri ilə başlayır. Bu qəmgin təsvir artıq əsərin sonunun faciəvi şəkildə bitməsi haqqında oxucuya məlumat verir. Bu povesti oxuyarkən müəllifin yalnız qəhrəmanların adlarını və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

yer adlarını dəyişdirdiyini görmək olar. Burdakı süjet xətti eynilə Karamzinin əsərindəki kimi təkrar olunur. Nəticə olaraq qeyd etmək istəyirik ki, müəllifi məlum olmayan "Kolon və Liza" əsərinin süjetini Karamzin "Zavallı Liza" povestində təkmilləşdirdi və bu əsər öz dövründə xeyli məşhur oldu. Karamzindən sonrakı müəlliflər həmin süjetin istiqamətlərini dəyişdirməklə onu daha yaxşı və oxunaqlı etmək istəyiblər.

## Ədəbiyyat

1. Berkov, P.N. (1964). The life and work of N.M.Karamzin // Karamzin N.M. Selected Op.: in 2 volumes. M.; L., Vol. 1. pp. 5-76.
2. Yakovlev, E.T. (1995). Aesthetic as perfect M.: Brandes, 408 p.
3. Kanunova, F.Z. (1965). On the evolution of sentimentalism by N.M.Karamzin ("Marfa-posadnitsa") // Uch. zap. / Tomsk, Univ. Issue 50: Questions of method and style. Tomsk. pp. 3-13.

**Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 26-29**
**Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 26-29**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/V**

**Gülsabah Əmirova**
Azərbaycan Respublikasının Təhsil İnstitutu
doktorant
amirova.gulsabah@mail.ru
ORCİD: 0000-0003-0256-3934

# TƏLƏBƏLƏRDƏ LİDERLİK KEYFİYYƏTLƏRİNİN İNKİŞAFI PROBLEMLƏRİ

***Açar sözlər:*** *liderlik keyfiyyətləri, şəxsiyyətin formalaşması, tələbələrlə iş, səriştələrin formalaşması, ali təhsil*
***Keywords:*** *leadership qualities, personality formation, work with students, competence formation, higher education*

XXI əsr ali məktəb məzunu peşəkar bilik və vərdişlərlə yanaşı, yaradıcı potensialını inkişaf etdirə biləcəyi lider keyfiyyətlərinə də malik olmalıdır. Ali məktəb təşəbbüskar, səriştəli, məsuliyyətli, istənilən fəaliyyət sahəsində düzgün qərarlar qəbul edə biləcək mütəxəssis-liderin hazırlanmasında məsuliyyət daşıyır. Müasir dövrdə liderlik bacarığı yalnız rəhbərlər üçün deyil, həmkarlarını ruhlandıraraq arxasınca apara biləcək qeyri-formal liderlər üçün də tələb olunandır.

Ali təhsil prosesinin əsasən şəxsiyyətin tələblərinə adaptasiyası istiqamətində qurulması mühüm istiqamətlərdən hesab olunmalıdır. Belə ki, təhsil prosesi hər tələbənin şəxsi keyfiyyətlərinin və potensial imkanlarının unikallığını təsdiqləməklə tədris prosesinin təşkilində yeni yanaşmalara təkan verir.

Məhz tələbəlik dövrünü insanın liderlik keyfiyyətlərinin formalaşması üçün uyğun hesab etmək olar, belə ki, bu mərhələdə ictimai-faydalı fəaliyyətə tələbat yaranır, məsuliyyət hissi formalaşır, müstəqillik, təşəbbüskarlıq, inadkarlıq kimi keyfiyyətlər müəyyən səviyyədə ifadə olunur. Potensial tələbə-lider bir qayda olaraq liderlik qabiliyyətini reallaşdırmağa

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

çalışır, pedaqoqlar isə bu imkanların cəmiyyətin xeyrinə, yaxud zərərinə işləyəcəyinə cavabdehlik daşıyırlar (Prikhodchenko, 2018: 55).

Liderlik keyfiyyətlərinə malik tələbələrin müəyən edilməsi təhsilin ilk mərhələsindən başlanmalı və pedaqoq-kuratorlar tərəfindən həyata keçirilməlidir. Bu məqsədlə tələbələrin müxtəlif fəaliyyət növlərinə (yaradıcı, idman, təşkilati, dərkedilən) cəlb edilməsi, liderlik potensialı imkanlarının artırılması vacibdir. Liderlərin müəyyən edilməsi prosesində testlərdən istifadə bəzi tədqiqatçılar tərəfindən bəyənilir. Sözügedən üsula münasibət birmənalı olmasa da, bu, ali məktəbin ilk pilləsinə qədəm qoyan tələbələr haqqında bəzi gərəkli məlumatları əldə etməyə imkan verir. Liderlik keyfiyyətlərini tədqiq edən bir sıra müəlliflər testlərə elm, təhsil, emosional-şəxsi, məişət və istirahətin təşkili kimi həyat fəaliyyətinin əsas sahələrini əhatə edən sualların daxil etməsini təklif edirlər (Prikhodchenko, 2018: 55).

Tələbələrdə liderlik keyfiyyətlərinin inkişafında çox maraqlı və effektli üsullardan biri sonuncu kurs tələbələrinin birinci kurs tələbələrinə kuratorluq etməsidir. Liderlik fəaliyyətinin təcrübədə tətbiqi ilə yanaşı, bu əlaqə birinci kurs tələbələrinin ali məktəb mühitinə adaptasiyası kimi mühüm məsələni də həll edir. Ali təhsil müəssisələrində təhsil alan tələbələrin liderlik səriştələrinin formalaşması ilk növbədə təşkilatı-pedaqoji şərtlər kompleksinin müəyyən edilməsi zəruriliyini irəli sürür ki, bu zaman təhsilin hər mərhələsində təhsilalanın tələbləri nəzərə alınmalıdır. Eyni zamanda, ali məktəb şəraitində liderlik səriştələrinin formalaşması metodikasının işlənib hazırlanması və bu metodikanın proqram-metodoloji təminatının tədris təcrübəsində tətbiqi həyata keçirilməlidir (Yarulina, 2008: 122-126).

Liderlik keyfiyyətlərini insanın şəxsi keyfiyyəti hesab etməyərək, onu əhatə edən mühitlə əlaqələndirən nəzəriyyələr

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

də mövcuddur. Bu baxımdan tələbələrdə liderlik keyfiyyətlərinin formalaşması prosesində tələbə özünüidarəçiliyinin xüsusi rolunu qeyd edə bilərik. Tələbə Şurası, qrup şurası, fakültə şurası, tələbə elmi şurası, gənclər şurası kimi təşkilat formaları müəyyən səlahiyyət funksiyalarını həyata keçirərək, tələbə liderlərinin hazırlanmasında bilavasitə iştirak edirlər (Yarulina, 2008: 122-126).

Liderlik səriştələrinin təcrübədə tətbiqi olaraq, tələbə özünüidarəçiliyi geniş potensial nümayiş etdirir, bu fəaliyyət tələbələrin təşəbbüskarlığı kimi qiymətləndirilsə də, onun böyük tərbiyəvi əhəmiyyətini qeyd etməliyik. Bunu tələbələrin peşəkar mühitdə yaradıcı baxımdan özlərini təsdiq etmələrinə yönəlmiş, tələbə həyatının müxtəlif sahələrinə aid problemlərin həlli ilə maraqlanan, əmək bazarında müasir rəqabətədavamlı mütəxəssislər (yaradıcı şəxsiyyətlər) hazırlayan idarəetmə formalarından hesab etmək olar (1).

Tədris mühitində reallaşmalı olan müəyyən tendensiyalar, tələbələrlə işin forma və mexanizmləri gərəkli səriştələrə malik mütəxəssislərin əmək həyatına hazırlanmasını şərtləndirir**.**

İş təklif edənlər əmək fəaliyyətində zəruri olan yalnız texniki vərdişlər deyil, koqnitiv (məsələn, problemləri hesablayaraq həll etmək), adekvat sosial davranış (müstəqil işləmək bacarığı, liderlik, komandada iş və s.) bacarıqlarına malik olmaq kimi tələblər də irəli sürürlər və bu səriştələrin formalaşdırılaraq inkişaf etdirilməsi Azərbaycanın təhsil sisteminin prioritet məsələlərindən birinə çevrilməlidir.

## Ədəbiyyat

1. Prikhodchenko, E.I. (2018). Pedagogicheskie usloviya vyyavleniya i razvitiya liderskikh kachestv u studentov. Vestnik Akademii grazhdanskoi zashchity, Vypusk 1 (13), c.53-58.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

2. Yarulina, L.P. (2008). Liderstvo v studencheskoi srede kak faktor formirovaniya kompetentsii i integratsii v grazhdanskoe obshchestvo // Sovremennaya vysshaya shkola: innovatsionnyi aspekt. № 1, c.122-126.
3. Regulations on the student council of Southern Federal University. http://sfedu.ru/www/stat_pages22.show?p=STD/N1034– müraciət tarixi 02.04.24

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 30-32
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 30-32
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Elzanə Musayeva**
Gəncə Dövlət Universiteti
dissertant
elzane.musayeva21@gmail.com

# REKLAM DİSKURSUNUN TƏHLİLİ

***Açar sözlər:*** *diskurs, reklam, mətn, dilçilik, reklam diskursu*
***Keywords:*** *discourse, advertising, text, linguistics, method*

Bu tezis reklam diskursunun əsas xüsusiyyətlərinin və müxtəlif aspektlərinin təhlilinə həsr olunmuş nəzəri tədqiqatdır. Reklamın informasiya mübadiləsində ayrılmaz rol oynadığı müasir sosial həyat işığında məqalədə reklamın təkamülü və onun dil strategiyalarına təsiri araşdırılır. Tədqiqat həm də reklamın tarixini əhatə edir, kommersiya məqsədləri üçün istifadə olunan kommersiya mətnlərinin xüsusiyyətlərinə diqqət yetirir.

Müasir cəmiyyətdə reklam mallar, xidmətlər və brendlər haqqında fikirlərin formalaşmasında əsas rol oynayan, məlumat mübadiləsinin inanılmaz mühüm elementinə çevrilmişdir. Bu məqalə, auditoriyaya cəlbedici təsir yaratmaq üçün dil və marketinq strategiyalarının birləşdiyi sahə olan reklam diskurs təhlilinə yönəlib. A.Abramov reklam mətnləri haqqında danışarkən onların ticarət prosesində aparıcı rola malik olduğunu qeyd edərək yazırdı: “Reklam rəqabət qabiliyyətli məhsul və ya xidmətlər arasında yeni məhsul və ya xidmətin bazara uğurla təqdim edilməsində xüsusi üstünlüklərin, özəlliklərin, yeniliklərin əsas xüsusiyyətlərini və fərqlərini təsvir etmək üçün çox böyük əhəmiyyətə malikdir” (Abramov, 2011). O qeyd edir ki, reklamın təklifi nə qədər aydın, səlis və başa düşülən olarsa, məhsul və ya xidmətin satışı prosesi bir o qədər asan olar.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Lakoniklik baxımından hazırda reklamlar üçün virtual məkan geniş üfüqlər açır. K.Ə.Həbibova bununla bağlı araşdırmasında belə yazır: “Müasir dövlət və cəmiyyətdə rəqəmsal rabitənin rolu transformasiyaya məruz qalmışdır: müvafiq məlumatların axtarışı, emalı və ötürülməsi vasitəsindən vətəndaşların daxili dünyasına nəzarət və təsir vasitəsinə çevrilmişdir. İnsan şüurunun sərhədlərinin genişləndirilməsinin, ona mühakimədə muxtariyyət və suverenlik xüsusiyyətlərinin verilməsinin ilkin modeli tədricən öz yerini kənardan tənzimlənən müəyyən davranış standartlarının yayılması yolu ilə kütləvi şüurun sərt və hərtərəfli manipulyasiyasına yönləndirir.

Reklam müasir insanın həyatında hər gün mövcuddur, lakin əksər hallarda heç kim onun fəaliyyət mexanizminin nə olduğu və ən əsası, insanlara necə təsir etdiyinin fərqinə varmır” (Həbibova, 2020: 556).

“Müasir reklamı xatırladan birinci reklam mətnləri hələ uzaq keçmişdə Qədim Misirdə və Qədim Yunanıstanda meydana çıxmışdır. O vaxtlar elanlar çox sadə idi və əsasən, informasiya xarakteri daşıyırdı. Onların yerləşdirilməsi üçün papirus kağızlarından, daş lövhələrdən və əsasən, evlərin divarlarından istifadə edilirdi” (Aslan, 2015: 27).

Məhz bu kontekstdə virtual diskursu ənənəvi mediadan fərqləndirən interaktivliyi qeyd etmək vacibdir. Bununla bağlı müasir dilçiliyimizdə əsaslı araşdırma aparan K.Ə.Həbibova belə bir fikir irəli sürür: “Kütləvi informasiya vasitələri ilə müqayisədə virtual diskursun fərqli cəhətlərindən biri onun interaktivliyidir. Burada hər bir istifadəçi məqalə, məlumat, forum və s.-yə şərh yazmaq və göndərmək imkanına malikdir” (Habibova, 2023: 173). Hər bir istifadəçi yalnız təqdim olunan məlumatları oxumaq deyil, həm də məqalələrə, məlumatlara, forumlara və digər resurslara öz rəy və şərhlərini bildirərək fəal iştirak etmək imkanı əldə edir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Yekun olaraq, reklam diskursunda linqvistik aspektlərə dair bu araşdırma bir neçə əsas nəticəni vurğulaya bilər:

Müasir təcrübədə reklam mətnləri dil normalarından yayınma və səhvlərdən strateji istifadəyə çalışır. Bu, qeyri-adi sözlər, ifadələr və ya hətta qrammatika qaydalarını poza bilər. Bu cür anomaliyalar özünəməxsus üslub yaratmaq və hədəf auditoriyanın diqqətini cəlb etmək üçün şüurlu və əsaslı yanaşmanı ifadə edir.

Reklam diskursu hədəf auditoriyaya aktiv şəkildə uyğunlaşmalıdır.

## Ədəbiyyat

1. Abramov, A. (2011). Reklam mətnlərinin janrları və onların xüsusiyyətləri.
2. Habibova, K.A. (2020). Digital Advertising and Digital Communication as a Means of Mass Manipulation // DETP.
3. Aslan, K. (2015). Reklam nəşrlərinin xüsusiyyətləri, təsnifləşdirilməsi və redaktəsi // Bakı: — Kitabxanaşünaslıq və informasiya. №1 (16), s.27-47.
4. Habibova, K.A. (2023). Virtual discourse as a communicative requirement of the modern era // Ad Alta, Vol. 13, İssue XXXII.

**Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 33-34**
**Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 33-34**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/V**

**Anna Gruzina**
Azərbaycan Dövlət Aqrar Universiteti
anna-v-g2004@yandex.ru
**Nuranə Musayeva**
Azərbaycan Dövlət Aqrar Universiteti
nuranemusayeva35@gmail.com
**Lətifə Məmmədova**
Azərbaycan Dövlət Aqrar Universiteti
latifa.mammadova3.lm@gmail.com

# PUBLİSİSTİK ÜSLUBUN XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *xüsusi məqsədlər üçün dil, üslub, üslub xüsusiyyətləri, ünsiyyət sferaları, texniki mətn, nitq fiqurları, ritorik texnika*

***Keywords:*** *language for specific purposes, style, stylistic features, spheres of communication, technical text, figures of speech, rhetorical techniques*

Stilistika üslubları və üslub resurslarını öyrənən dilçiliyin xüsusi bir sahəsidir. Üslublar ünsiyyət sahələrində və dilin əsas funksiyalarında fərqliliklər nəticəsində yaranan dil növləridir. Məqsədimiz publisistik mətnin üslub xüsusiyyətlərini müəyyən etməkdir. Bunun üçün publisistik üslubun ümumi xüsusiyyətlərini nəzərdən keçirəcək, onun janr müxtəlifliyini müəyyənləşdirəcək, publisistik mətnin hansı funksiyaları yerinə yetirdiyini öyrənəcək, onun üslub xüsusiyyətlərini leksik və sintaktik səviyyədə öyrənəcəyik.

Publisistik üslub ədəbi dil üslubları sistemində xüsusi yer tutur, çünki bir çox hallarda başqa üslublar çərçivəsində yaradılmış mətnləri yenidən işləməlidir. Elmi və işgüzar nitq reallığın intellektual əks olunmasına, bədii nitq onun emosional

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 33-34
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 33-34
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

əks olunmasına yönəlib. Jurnalistika həm intellektual, həm də estetik tələbatları ödəməyə çalışdığı üçün xüsusi rol oynayır.

Publisistik mətnin üslub xüsusiyyətləri verilmiş üslubun funksiyaları ilə sıx bağlı olduğundan, bu məsələyə xüsusi diqqət yetirmək lazımdır. Publisistik üslubun ən mühüm funksiyaları informasiya və təsirdir. Bu üsluba aid olan mətnlərin informasiya funksiyası ondan ibarətdir ki, belə mətnlərin müəllifləri cəmiyyət üçün əhəmiyyətli olan problemlər və müəlliflərin bu problemlərə baxışları barədə oxucuların, tamaşaçıların və dinləyicilərin ən geniş dairəsini məlumatlandırmaq məqsədi daşıyır. Publisistik üslubun informasiya funksiyası dəqiqlik, məntiq, formallıq, standartlaşma kimi üslub əmələ gətirən xüsusiyyətləri müəyyən edir.

Vətəndaşların sosial əhəmiyyətli sahələrdə işlərin vəziyyəti haqqında məlumatlandırılması jurnalist mətnlərində bu üslubun ikinci mühüm funksiyasının - təsir funksiyasının həyata keçirilməsi ilə müşayiət olunur. Publisistin məqsədi təkcə cəmiyyətdəki vəziyyət haqqında danışmaq deyil, həm də tamaşaçını təqdim olunan faktlara müəyyən münasibətin və müəyyən davranışın zəruriliyinə inandırmaqdır. Nə elmi, nə də rəsmi-işgüzar nitq üçün xarakterik olmayan jurnalist üslubunun parlaq, emosional ifadəli rənglənməsinin səbəbi budur. Beləliklə, publisistik üslub açıq qərəzlilik, polemikizm və emosionallıq ilə xarakterizə olunur.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 35-38
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 35-38
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Təranə Hüseynova**
Naxçıvan Dövlət Universiteti
teranehuseynova24@gmail.com
Orcid 0009-0001-7945-2004

# ASƏF ZEYNALLININ YARADICILIĞINDA AZƏRBAYCAN MUSİQİSİNİN TƏBLİĞİ

***Açar sözlər:*** *Azərbaycan, musiqi, bəstəkar, klassik, professsional*

***Keywords:*** *Azerbaijan, music, composer, classical, professional*

Azərbaycanın ilk professional təhsilli bəstəkarı, ilk Azərbaycan simfonik musiqisinin və klassik romans janrının müəllifi, milli musiqi incəsənətinin inkişafında misilsiz xidmətlər göstərmiş Asəf Zeynallı yaradıcılığında mühüm yer tutan vokal əsərləri içərisində romans və mahnılar Avropa klassik vokal forması ilə xalq musiqimizin lad-məqam, melodiya xüsusiyyətlərini əlaqələndirən bədii nailiyyətdir.

Qısa ömür yaşamasına baxmayaraq, Asəf Zeynallının fəaliyyəti çoxşaxəli olmuşdur: bəstəkarlıq, pedaqoji və ictimai fəaliyyət, xalq musiqisinin toplanılması, notlaşdırılıması, və işlənilməsi, Azərbaycan musiqisinin təbliği.

Bəstəkarın yaradıcılıq yolunda onun vokal və kamera instrumental əsərləri Azərbaycan musiqi tarixinin əhəmiyyətli hissəsini təşkil edir.

16 yaşından yaradıcılığa başlayan Asəf Zeynallının cəmi 7 il yazıb-yaratmaq imkanı olmasına baxmayaraq, musiqi tariximizdə öz sözünü deyə bilmiş, dəyərli əsərlər müəllifi olaraq mədəniyyətimizin önəmli simasına çevrilmişdir. Vokal musiqisi sahəsində ilkə imza atan A.Zeynallının yaradıcılığında bu sahə əsas yer tutur. Beş romansın müəllifi olan A.Zeynallı

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

kamera-vokal musiqisinin romans və mahnı janrlarında peşəkar səviyyəli gözəl nümunələr yaratmışdır: “Ölkəm”, “Sual”, “Seyran”, “Sərhədçi”, “Çadra”.

Sayca az olmasına baxmayaraq, bu nümunələr özünəməxsus melodik ifadəliliyi, forma lakonikliyi, zəngin bədii obrazlılığı, emosional təsirliliyi, əlvan lad-məqam palitrası, maraqlı lad keçidləri ilə seçilirlər. Onun romansları mövzu və janr etibarilə müxtəlifdir. Məsələn, vətənpərvər mövzuda yazılmış “Sərhədçi”, vətənin gözəlliklərini, onun füsunkar təbiətini, doğma el-obaya olan məhəbbət hissini əks etdirən “Ölkəm”, lirik əhval-ruhiyyəli “Çadra”, qəmli-dramatik “Seyran”, “Sual” romanslarında bəstəkar özünün istedadını ortaya qoya bilmişdir.

Asəf Zeynallının ilk vokal əsəri “Ölkəm” romansı 1928-ci ildə görkəmli Azərbaycan dramaturqu və lirik şeirlərin müəllifi olan C.Cabbarlının sözlərinə bəstələnmişdir. Yarandığı vaxtdan geniş xalq kütlələri tərəfindən sevilərək ölməzlik qazanmış bu romansı haqlı olaraq “mənəvi sərvətimiz” adlandıra bilərik. Bu əsər ilə Azərbaycan musiqi tarixində klassik Avropa romansının ilk nümunəsi meydana çıxdı. Əsər bütün Azərbaycan musiqi tarixinin ən ciddi və əhəmiyyətli əsərlərindən biri hesab olunur. Coşğun monoloq himn sayılan bu romans müəllifinə böyük şöhrət gətirmişdi.

Bəstəkarın kamera-instrumental yaradıcılığında fortepiano əsərləri xüsusi yer tutur. Bəstəkar instrumental janrlara müraciət edərək, fortepiano üçün gözəl əsərlər yaratmış, bu yaradıcılığı ilə respublikada milli-professional fortepiano musiqisinin və ifaçılığın inkişafına böyük təsir göstərmiş, ifaçılıq və tədris repertuarını öz fortepiano əsərləri ilə zənginləşdirmişdir. Bu əsərlər müasir dövrümüzdə də musiqi-təhsil müəssisələrində və ifaçıların repertuarında öz layiqli yerini tutmaqdadır. “Uşaq süitası”, “Çahargah”, “Duma” pyesləri, 9 fuqası bəstəkarın bu sahədə yaratdığı maraqlı sənət nümunələridir. “Uşaq

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 35-38
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 35-38
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

süitası"nı yazmaqla A.Zeynallı Azərbaycanda uşaq fortepiano miniatürünün əsasını qoymuş, milli fortepiano musiqi üslubunu yaratmış, bu əsəri ilə Azərbaycan musiqi tarixinə ilk uşaq fortepiano musiqisinin və uşaq fortepiano miniatürünün banisi kimi düşmüşdür.

"Uşaq süitası" klassiklərdən P.İ.Çaykovskinin "Uşaq albomu", R.Şumanın "Gənclər üçün albom", A.Qlazunovun "Gənclik pyesləri" və s. kimi məşhur məcmuələrdəki ənənələri davam etdirir. Azərbaycan bəstəkarlarından Qara Qarayevin, Fikrət Əmirovun, Əşrəf Abbasovun, Qənbər Hüseynlinin və b. uşaqlar üçün albomları, silsilə pyesləri, məcmuələri bu sahədə ilk nümunələrdən olsalar da, A. Zeynallının "Uşaq süitası" daha öncə yazılmışdır və uşaq miniatür fortepiano musiqisinin, uşaqlar üçün tədris ədəbiyyatının əsasını təşkil edir.

Süita müxtəlif xarakterli 6 pyesdən ibarətdir. Bu fortepiano miniatürlərində bəstəkar sadə ifadə vasitələrilə uşaq həyatının səhnələrini təsvir etmişdir. Bu obrazlar müəllif tərəfindən uşaqların bədii zövqünün qəbul edə bildiyi tərzdə, sadə melodiya, faktura, harmoniya ilə yaradılmışdır. Digər tərəfdən, 6 pyes bir-biri ilə obraz, ifadə əlaqəsinə malik olub, süitanın quruluşunu təşkil edir.

Bəstəkarın əsərlərində dövrün qabaqcıl ideyalarının nəfəsi aydın duyulmaqdadır. Onun əsərləri Azərbaycanın o zamankı həyatının canlı əksidir. A.Zeynallı yaradıcılığında özünü göstərən milli üslub Azərbaycanda bəstəkarlıq ənənələrinin yaranmasında iştirak etmişdir.

Səmimilik, fikrin sadə və səmimi ifadəsi, zahiri effektlərə yer verməməsi, sadə hamofon-harmonik fakturanın musiqidəki dərin mənanı aça bilməsi, şeir və musiqinin əlaqəsində forma ilə məzmunun vəhdət təşkil etməsi, melodik axıcılıq, musiqinin dinləyici tərəfindən tez qavranılması və mənimsənilməsi - bütün bunlar A.Zeynallının vokal üslubunun əsas xüsusiyyətlərindəndir.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 35-38
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 35-38
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Bəstəkarın romanslarının böyük tarixi rolu onların yalnız bu janrda yazılmış ilk nümunələr olmasında deyildir. Bu romanslar həm də kamera-vokal musiqisinin əsas xüsusiyyətlərini özündə cəmləşdirən ən yaxşı əsərlərdən biri kimi Azərbaycan vokal musiqisində fəxri yer tutur. Lirik şəxsiyyətlərlə əlaqədar olan xətt də ilk dəfə Zeynallının romanslarında yaranmışdır. Həmin xətt sonralar bir çox Azərbaycan bəstəkarlarının yaradıcılığında inkişaf etdirilmişdir.

Özünün lirik hərarəti və səmimiliyi ilə adamı valeh edən A.Zeynallı musiqisi onun yaradıcı surətdə istifadə etdiyi xalq mahnıları ilə sıx bağlıdır.

A.Zeynallı yaradıcılığının əsas xüsusiyyətlərindən biri onun romanslarında insanın daxili aləminin, fikir və hisslərinin lirik təhkiyyə, lirik monoloq formasında ifadə olunaraq açılmasıdır. Belə hallarda bəstəkar muğam intonasiyalarından və onların inkişaf prinsiplərindən məharətlə istifadə edir.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 39-43
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 39-43
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Vüsalə Hümbətova**
Azərbaycan Texnologiya Universiteti
Vusalagumbatova1981@gmail.com

# DÜNYANIN DİL MƏNZƏRƏSİ, METAFORİK NEOLOGİZMLƏR VƏ KEÇİD MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *təsəvvürlərin inikası, dil mənzərəsi, metaforlaşmış neologizmlər, metafora, leksik-semantik sistem*
***Keywords:*** *vision of imagination, lanquage landscape, metaphorized neologisms, metaphor, lexical-semantik system*

Dünyanın dil mənzərəsi xalqın müəyyən inkişaf mərhələsində onun gerçəklik haqqında dilin vahidlərində təsbit olunmuş təsəvvürlərin məcmusu, dil işarələrində gerçəklik təsəvvürlərinin inikası, dünyanın dildə üzvlənməsi, əşya və hadisələrin nizamlı düzümü, dünya haqqında söz mənalarının sistemində gizlənən informasiyadır. Dünyanın dil mənzərəsi həmin dilin bütövlükdə götürülmüş tam konseptual məzmunudur. Dil mənzərəsi sözlərlə, işarələrlə, frazemlərlə, onların ünsiyyət prosesində seçimi ilə, obrazlı ifadələrlə, metaforla və intonasiya ilə yaranır ki, onların da hər biri ayrılıqda tədqiqat obyekti ola bilər: dildə obyektiv gerçəkliyin leksik-semantik sahələr üzrə üzvlənməsi, dil sistemində nominativ vahidin olmaması (lakunarlıq) və yalnız bir dildə vahidlərin olmasının müəyyən edilməsi (endemik) kimi məsələlər tədqiq oluna bilər. Şübhəsiz, dünya mənzərəsinin əsasında insanın əlaqədə olduğu ətraf aləmin onun təsəvvürlərində formalaşmış modeli durur.

Metaforlaşma özünün mental və konseptual modelləri ilə dünyanı, ətraf aləmi, onun həqiqətlərini təbii şəkildə dərk edir, qavrayır. Metafora fikir prosesini müşaiyət edir. Məs.: *yumşaq divan - yumşaq səs, soyuq hava - soyuq işıq konkret və mücər-*

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

*rəd obyektlərin ümumiliyi*, materiya və mənəviyyat - vaxt qaçır (sürətlə) –fikir başda oturur (yerləşir) və s.

Bizim tədqiqatda başlıca məsələlərdən biri də leksik-semantik sistemdə metaforlaşmış neologizmlərin (söz və ifadələrin) məna çeşidlərini aydınlaşdırmaqdan ibarətdir. Yəni metaforlaşmış neologizmlərin (söz və ifadəlarin) məna növlərini tədqiq etmək; onların (söz və ifadələrin) məna qruplarını və bunların yaranma, inkişafetmə xüsusiyyətlərini öyrənmək; həmçinin də metaforlaşmış neologizmlərin mənalarının dəyişmə səbəblərini müəyyənləşdirməkdir.

Digər bir məsələ metaforik keçidlərdir.

T.Əfəndiyeva metaforlaşmanı yeni və mürəkkəb bir hadisə hesab edir. Bu məna neologizmləri əmələ gətirir. *"Belə ki, bir əşyanın adı digərinin üzərinə müxtəlif xarakterli əlaqələr nəticəsində kecə bilir. Bu cəhət isə artıq məcazın rəngarəng formalara malik oldugunu göstərir. Metaforadan danışan müəllif yazır ki, onun yaranması təfəkkürün müxtəlif əşya və hadisələr arasında mövcud olan qarşılıqlı əlaqələri dərketmə bacarığı ilə baglı bir hadisədir. Dil üçün bu, olduqca əlverişli bir hadisədir. Çünki varlığın əşya və hadisələri dildə olan söz ehtiyatından qat-qat artıqdır. Metaforik məcazlaşma nəticəsində əmələ gələn mənalar isə həmin obyektlərin adı kimi işlənə bilir. Metaforikləşmə prosesi dildə ayrı-ayrı sözlərin məcazlaşması ilə kifayətlənmir. Adətən, leksik vahidlərlə yanaşı, dilimizdə məcazi xarakterli mürəkkəb, yaxud morfoloji-sintaktik birləşmələr də əmələ gəlir"* (Müasir, 1978: 157,165).

H.Həsənov yazır ki, metaforlaşma oxşar əlamətlərin ümumiliyinə görə gercəkliyin bir-biri ilə əlaqədar olan əşyalardan birinin adının digər oxşar əşyanın adına köçürülməsidir. Metaforlaşma forma, rəng, daxili keyfiyyət oxşarlığı, zaman və məkana, ifadə olunan funksiyaya, əhatə olunma sahəsinə və s. əsasən ola bilir. Demək, metaforlaşma obyektiv gerçəklikdəki anlayışları obrazlı bir şəkildə ifadə etmək, təsirlilik və ifadənin

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 39-43
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 39-43
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

bəsitliyini artırmaq məqsədilə yaranır. Bir əşyanın adının digər əşyaya köçürülməsi sözün (birinci əşyanın adı) ayrı-ayrı mənaların ümumiləşdirilməsi yolu ilə gedir" (Həsənov, 1988: 38).

Digər məqsəd: tutuşdurulan dillərin leksik-semantik sistemində metaforlaşma prosesinin formalaşması, funksionallaşması və inkişafında yeri və rolu, əsas semantik sahələri meydana çıxarmaq, metaforik mənaların yaranma səbəblərini öyrənmək, metaforik keçidlərin requlyar tiplərini müəyyənləşdirməkdir.

Öncə qeyd edək ki, məcazın (möcüzə sözündəndir) daha məhsuldar, ən obrazlı və geniş yayılmış, işlək bir növü də metaforadır (yunanca, *"mtetafora" - köçürmə*). Bu növün meydana gəlməsi dünyanın ayrı-ayrı predmet, proses və hadisələr arasındakı qarşılıqlı mənasibətləri qavrama bacarığı ilə əlaqədar bir modelləşdirmə prosesinin nəticəsidir. Bu model-hadisə keçid vasitəsilə bağlı olan neologizmdir. Məhz bu qeyd olunan cəhətlər öncədən mövcud olan bir predmet, proses və hadisənin nominasiyasını (adını) dəyişdirir, digərinin adı kimi istifadə etməyə şərait yaradır. Deməli, *metaforanın əmələ gəlməsi bu və ya digər əşya və ya hadisə adının bənzərini, müqayisə, oxşarlıq assosiasiyası nəticəsində başqasının üzərinə keçirilib işlənməsi ilə bağlıdır. Dil üçün bu, olduqca əlverişli bir hadisədir. Çünki varlığın əşya və hadisələri dildə olan söz ehtiyatından qat-qat artıqdır. Metaforik məcazlaşma nəticəsində əmələ gələn mənalar isə həmin obyektlərin adı kimi işlənə bilir.*

Azərbaycan və ingilis dillərində metafora-neologizmlərin özünə məxsus struktur tərkibi, formalaşma, funksionallaşma, məhsuldarlıq dərəcəsi mövcuddur. Bizim araşdırmada metaforlaşma prosesi, onun modelləri üzə çıxarılır, metafora-neologizmlərinin hər iki dildə dünyanın dil mənzərəsinin mücərrəd təsəvvürdə dərkindəki əhəmiyyəti müəyyənləşdirilir,

**Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 39-43**
**Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 39-43**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/V**

metoforik keçidin sistemliliyi dəqiqləşdirilir, nəhayət dilin leksik-semantik sisteminin zənginləşməsindəki rolu aşkara çıxarılmışdır.

Rus-Avropa dilçiliyində bu məsələ həm üslubi planda-məcazın bir növü, məcazlaşma hadisəsi olaraq, həm də dünyanın dil mənzərəsi kontekstində araşdırılıb. İngilis və rus dillərinin metaforik neologizmləri material olaraq təhlilə cəlb edilib. N.Karpova (Karpova, 2007) müasir metafora nəzəriyyəsi və neologizmlərin postulatlarını, metaforanın tipologiyasını təyin etmiş, dünyanın dil mənzərəsinin formalaşmasında metaforanın bir mühüm vasitə kimi rolunu əsaslandırmış, metaforanın koqnitiv funksiyasını müəyyənləşdirmiş, neologizmin nəzəri əsaslarına aydınlıq gətirmişdir. Müəllif tədqiq etdiyi sahəni yeni terminoloji vahidlə - *"metafora –neologizmlər"* adlandırmışdır. Həqiqətən də, metafora-neologizmlər müasir dünyanın dil mənzərəsini inikas etdirmək gücünə malikdir.

Metaforik keçidlər dilin leksik-semantik inkişafı ilə həmişə təmasdadır. Ayrı-ayrı bu proses ədəbi dilin normallaşmasında aktiv rol oynayır. Keçid nəticəsində əmələ gələn metaforikləşmiş mənalar digər mənalardan təcrid olunaraq özünü göstərir.

Nəhayət, əsaslandırılır ki, metafora nitq və mətndə düşüncənin məhsulu kimi ortaya çıxır. Dilin leksik-semantik kateqoriyalarından birini təşkil edir. Şərh olunan metaforalarda gizli müqayisənin də varlığı aşkar olur. Müqayisə iki obyekti bir-birindən seçib ayırır. Metafora sözlərin semantik inkişafını təmin edir, ələlxüsus da obraz yaradır, bu yolla mətni, nitqi gözəlləşdirir.

Bütün bunlar keçid mənalarının gedişində öz izahını tapır. Beləliklə, güclü ümumiləşdirmə bir predmet və hərəkətinin əlamətlərini başqa predmetə keçirir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

## Ədəbiyyat

1. Müasir Azərbaycan dili. (1978). Bakı, "Elm".
2. Həsənov, H. Müasir Azərbaycan dilinin leksikası. Bakı, "Maarif", 1988
3. Karpova, N.S. (2007). Rol' metafory v razvitii leksiko-semanticheskoi sistemy yazyka i yazykovoi kartiny: na materiale angliiskikh i russkikh neologizmov. Avtoref. diss. kand.filol.nauk, M.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 44-47
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 44-47
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Fatma Saralova**
Gəncə Dövlət Universiteti
fatmasaralova@gmail.com

# AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN PARLAMENT DİLİ. DÖVLƏT QURUCULARININ DİLƏ MÜNASİBƏTİ

***Açar sözlər:*** *Azərbaycan, Cümhuriyyət, parlament, dil, dövlət*

***Keywords:*** *Azerbaijan, goverment, parliament, language, state*

Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika, eyni zamanda, ilk parlamentli dövlət olmuşdur. Dil məsələsi Azərbaycan Xalq Cümhuriyyəti dövlətinin hər zaman diqqət mərkəzində olmuşdur. Azərbaycan dilinin sözün əsl mənasında dövlət dili kimi işlənməsi öz həqiqi təcrübi tətbiqini geniş şəkildə ilk Azərbaycan parlamentinin dilində tapdı. Parlamentdə dillərin işlənməsi məsələsi, təbii olaraq, qanunverici hakimiyyətin, parlamentin üzvlərinin öhdəsinə buraxılmışdı. Parlamentin istifadə etdiyi dil dövlət dili statusuna malik Azərbaycan türkcəsi idi. Qeyri-yerli parlament nümayəndələri çıxışların rus dilində olmasını təklif etdikdə parlamentin iclaslarından birində bu məsələ xüsusi müzakirə olunmuş və bu xüsusda qərar qəbul edilmişdi. Qərara əsasən, parlamentin rəsmi dili Azərbaycan türkcəsi elan olunmuş, digər millətlərin nümayəndələrinin öz çıxışlarını rus dilində etmələri məqbul hesab edilmişdir. Bununla belə, rəsmi sənədlərin hamısı dövlət dilində tərtib edilirdi. Dövlət dilində olmayan sənədlərin üstündə, adətən, parlamentin sədr müavini Həsən Bəy Ağayev belə bir məzmunda dərkənar qoyurmuş: *"ərizə türkcə lisanda olmadığı üçün əncamsız qalır."* (Nəsibzadə, 1990: 61).

**Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 44-47**
**Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 44-47**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/V**

Onu da qeyd edək ki, parlamentdə ana dili məsələsi daim diqqət mərkəzində olmuş, qanun layihələrinin türkcəsi olmadıqda bu məsələyə baxılmamışdır. Azərbaycan Cümhuriyyəti parlamentinin iclasları Azərbaycan dilində aparılmışdır. Hətta Azərbaycan dilini yaxşı bilməyən azərbaycanlı nümayəndələr öz dillərində danışmağa məcbur idilər. Yalnız parlamentin başqa millətdən olan nümayəndələri və xarici qonaqlar rus dilində danışırdılar. Parlamentin protokolları iki dildə - Azərbaycan və rus dilində rəsmiləşdirilirdi. Azərbaycan dilində olan protokollarda rus dilində danışan natiqin çıxışları bəzən tərcümə edilərək Azərbaycan dilində verilmiş, bəzən isə onun adının qabağında mötərizədə yalnız "rusca" sözü yazılmışdır. Rus dilində olan protokollarda isə əksinə, Azərbaycan dilində çıxış edən natiqin adının qabağında mötərizədə "türkcə" sözü yazılmışdır. Gürcüstan parlamentindən gələn teleqramı katib rusca oxuyarkən M.Ə.Rəsulzadə yerindən – Mən təklif edirəm ki, bundan belə parlamentdə gələn teleqraflar qabaqca türkcəyə tərcümə edilib oxunmalı və lazım gələrsə, rusca da oxunsun. Burası Azərbaycandır. Lisanipəsmimiz türkdür. M.Ə.Rəsulzadənin bu sözləri parlament üzvləri tərəfindən alqışlarla qarşılanır. Ümumi - xeyriyyə nazirinin məktubunu oxuyarkən M.Ə.Rəsulzadə yerindən: *"O nədir anlamıram. Nə üçün belə yabancı dildədir. Qaytarın öz dilimizdə yazsınlar"* (Azərbaycan, I, 1998: 181). Yusifbəyli öz nitqində millətin dilə münasibətini belə şərh edir: "Möhtərəm əfəndilər! Bir əsrdən bəri maddətən və mənən bir çox təzyiqlərə məruz qalan Azərbaycan türkləri Azərbaycan daxilində bütün vətəndaşlarına bir gözlə baxmaqla hər kəsin kəndi dilində yazıb oxumasına, kəndi dilini və kəndi maliyyətini mühafizə etməsinə müsaidə etməzsə, tarixi bir səhv yapmış olur. Onun üçün hökumət sevgili azərbaycanımızın cümlə vətəndaşlarımız üçün həqiqi bir vətən olmasına çalışacaqdır" (Azərbaycan, II, 1998: 445).

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 44-47
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 44-47
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Yusifbəyli öz nitqində millətin inkişafının maariflə bağlı olduğunu dönə-dənə qeyd edirdi: "Möhtərəm məbuslar! Məlumdur ki, istiqlalımız istiqbalımız həp maariflə bağlıdır. Əgər milli maarifimiz, milli məktəbimiz tərəqqi etməzsə, bizim üçün fəlah və nicat ümidi qalmaz. Hökumət bunu bilir. Bunun üçün ibtidai təhsilin ümumi olmasına əsas hazırlamaya və işbu eyluldan etibarən ibtidai məktəblər açmağa təşəbbüs edəcəkdir. Sənaye məktəblərinə ayrıca diqqət edəcəkdir. Mövcud edadilərdən bir qismi tədricən milliləşdiriləcək, digər qismi isə qeyri-müslim cocuqlar üçün rus lisanında iqba edəcəkdir. Hər millətin kəndi lisanında oxumasına heç bir mane olmadığından, onların cocuqları üçün hökumət hesabına məktəblər açılacaqdır".

Azərbaycanın ilk parlamentinin dilinin özünəməxsusluğundan danışarkən bir məsələni xüsusilə qeyd etmək gərəkdir. O da bundan ibarətdir ki, Dövlətin bu ali orqanında yazılı dillə şifahi nitq arasında ciddi fərq olmuşdur. Bəzi istisnalar nəzərə alınmazsa, sənədlərin, təkliflərin dili bir ümumi, bəlkə də məcburi prinsiplə əsaslanmış, şifahi nitqdə isə, bir qayda olaraq sərbəstliyə yol verilmişdir.

A.Axundov qeyd edir ki, Azərbaycan parlamentinin dilində bu iki cəhət özünü aydın göstərir. "Bir tərəfdən Azərbaycan ümümxalq dili üzərində yüksələn, o biri tərəfdən daha çox osmanlı dilinə çəkən, bəzi hallarda tamamilə osmanlı dilindən ibarət olan bir dil" (Axundov, 2003: 379).

Parlamentin dilini araşdırarkən görürük ki, kimliyindən, hansı partiyaya mənsubluğundan  asılı olmayaraq hər kəs dilimizin inkişafı ücün calışır.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

## Ədəbiyyat

1. Nəsibzadə, N. (1990). Azərbaycan Demokratik Respublikası. Bakı.
2. Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). (1998). Parlament. 2c. Bakı, 992 s.
3. Azərbaycan Xalq Cumhuriyyəti (1918-1920). (1998). Parlament. 1c. Bakı, 976 s.
4. Axundov, A. (2003). Dil və ədəbiyyat. 1c. Bakı, "Gənclik".

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 48-51
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 48-51
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Xəqani Cəfərli**
Bakı Dövlət Universiteti
dissertant
xaqani.ceferli.1990@mail.ru

# ABŞ-ın ƏFQANISTANDA BEYNƏLXALQ HUMANİTAR QAYDALARA RİAYƏT ETMƏSİ VƏ MÜHARİBƏYƏ TƏSİRİ (2001-2015-ci illər)

***Açar sözlər:*** *ABŞ, Əfqanıstan, humanitar, hüquqlar, qurbanlar, əhali,*
***Keywords:*** *USA, Afghanistan, humanitarian, rights, victims, population*

Bir tərəfin dəfələrlə humanitar normaları pozması digər tərəfin davranışlarına təsir edə bilər. Əfqanıstan müharibəsinin (2001-2021) təcrübəsi göstərdi ki, qısa müddətli hərbi üstünlüyə baxmayaraq, dəfələrlə humanitar hüquqlar pozulduqda, toqquşmada qarşı tərəfə (ABŞ) etimadın azalmasına və qururuna təsir edə bilər (Konflikt v Afqanistane, dekabr 2010 – mart 2011: 139-182, 150).

Əfqanıstan cəmiyyətinin ən əsas qınağı ABŞ aviasiyası tərəfindən havadan endirilən hücumlar nəticəsində, mülki vətəndaşların həlak oması idi, baxmayaraq ki, "Taliban" və başqa qruplaşmalar daha çox insan qətlə yetirirdilər. Həqiqətən, ABŞ tərəfindən Əfqanıstanda aviasiya İraqdan fərqli olaraq daha geniş istifadə edilirdi. Bu burada quru qoşunların az olması və çətin relyeflə bağlı idi (Suşençov, 2013: 77)

Bunu da qeyd etmək lazımdır ki, müharibənin gedişatı zamanı kəşfiyyatın keyfiyyəti artdığından qurbanların sayını ən az həddə azaltmaq mümkün olmuşdur, bir şərtlə ki, ABŞ hərbiçiləri öz aviazərbələrini qabaqcadan planlaşdırırdılar.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Mülki əhalinin əbəs yerə həlak olmaması üçün qaydalar tərtib edilmişdi. Bu qaydalar vəziyyətdən fərqli olaraq, müxtəlif hədəfləri dəqiq seçməkdən ötrü, bombanın növünü təyin etmək, həm də onun atma bucağını və hündürlüyünü dəyişmək imkanı verirdi və onlar bombalamaq əmrini icra etmədən əvvəl, kimin bu yerdə olduğunu tam dəqiqliklə araşdırmalı idi (Djons, 2013: 325).

Mülki əhali arasında günahsız insanların qətli tək avia-zərbələr nəticəsində baş vermirdi. Misal üçün, 4 mart 2007-ci ildə Nangərhar əyalətində, bomba ilə yüklənmiş maşın ABŞ dəniz piyadalarının hərbi karvanına çırpılmaq cəhdi etmişdi. Lakin yerli əhalinin iddialarına görə amerikan hərbiçiləri təsadüfi mülki maşın və piyadalara atəş açmağa başlamışlar. Bu hadisədə on doqquz mülki əfqan sakini həlak olmuşdu. İstintaqdan sonra ABŞ hərbi gərargahı formal olaraq üzr istəmiş, bu anlaşılmazlığa görə “çox xəcalət çəkdiklərini” və bunun “böyük səhv” olduğunu bəyan etmişdilər. Yerli əhalinin münasibəti çox qətiyyətli və sərt oldu. Nəngərhar və başqa əyalətlərdə kütləvi nümayiş aksiyaları keçirildi, iştirakçılar hökümət və ABŞ əleyhinə şüarlar səsləndirdilər (Djons, 2013: 326). Ümumiyyətlə isə, mülki əhali arasında qurbanlara dair, ABŞ şərti olaraq “itkiləri azaltmaq (sayını ixtisar etmək), etiraf etmək və zərərdən pul müqabilində yayınmaq” taktikasını işə salmışdı. Xüsusən, ABŞ hərbiçilərinin mülki şəxsin qətli zamanı “məsuliyyətdən vəsait müqabilində yayınmaq” təcrübəsi tədbiq edilirdi. Xüsusi “Müharibə qurbanlarına dəstək fondu” mərhumun ailəsinə on minlərlə ABŞ dolları civarında pul ayırırdı. Bu da əfqanların səfalət içində yaşadığı mühit üçün yetərincə böyük vəsait idi (Suşençov, 2013: 77).

2008-ci ildə ABŞ ordusunun hesabatına görə, Əfqanıstanda gedən müharibə şəraitində 2008-ci ildə qurbanların sayı 2007-ci il ilə müqayisədə 39-54% artmışdı (Djons, 2013: 325). Ümumiyyətlə isə, əfqan əhalisi tərəfindən ABŞ-a dəstək və

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

inam 83% 2005-ci ildən 47% qədər 2009-cu ildə azalmışdır. Müharibə müddətində ABŞ ordusu daha diqqətli olmağa çalışırdı.

Ona görə ki, birincisi, mülki əhali arasında itkiləri azaldaraq ümumi ictimai qınağı azaldmaq, ikincisi isə müharibədə israfçılığa yol verməmək məqsədlərini güdürdü (Suşençov, 2013: 77).

Misal üçün, 18 fevral 2015-ci ildə Birləşmiş Millətlər Təşkilatının Əfqanıstana Yardım Missiyası (UNAMA) 2014-cü il üzrə (qeydiyyat 2009-cu ildən aparılır) illik hesabatında, yalnız 2% ümumi mülki əhali arasında qurbanların sayı beynəlxalq qüvvələrin üzərinə düşürdü (ABŞ da daxil olmaqla) (Doklad, 2015: 8). Xüsusən, Əfqanıstan müharibəsinin ikinci mərhələsində (1 yanvar 2015 – 30 avqust 2021) ABŞ ordusu Əfqanıstan əhalisinin "ürəklərini və şüurlarını" ələ almaq üçün, mövcud humanitar normalara səylə riayət etməyə çalışırdı (Konflikt v Afqanistane, 2011: 139-182, 181).

Buna baxmayaraq, Əfqanıstanda gedən uzun müddətli münaqişə, humanitar hüquq sahəsində görünən dəyişikliklərə gətirib çıxarmadı. Mülki əhali arasında böyük tələfatlar, sadə əfqanların ürək və şüurlarını fəth etmək savaşında quruculuq və digər xeyriyyəçi tədbirlərlə bağlı olan uğurları sarsıdırdı və bu da yerli əhalini "Taliban" və başqa ekstremist qruplaşmalara qoşulmağa sövq edirdi (Djons, 2013: 325).

## Ədəbiyyat

1. Konflikt v Afqanistane. (dekabr 2010 – mart 2011). Mejdunarodnıy jurnal Krasnoqo Kresta, № 880\881, 59 - 95, 303 s.
2. Suşençov, A.A. (2013). Oçerki politiki SŞA v reqionalnıx konfliktax 2000-x qodov. İzdatelstvo MQİMO – Universiteta, Moskva, 249 s.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

3. Djons, S.D. (2013). Na kladbishe imperiy. “Eksmo”, Moskva, 470 s.
4. Doklad 69-oy sessii Generalnoy Assamblei Soveta Bezopasnosti OON 27 fevralya 2015 qoda (polojeniye del vAfqanistane) (2015), 49 s.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 52-55
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 52-55
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Mübariz Göyüşlü**
Bakı Dövlət Universiteti
dissertant
mubariz2011@hotmail.com

# AZƏRBAYCAN VƏ TÜRKİYƏ İQTİSADİ MÜNASİBƏTLƏRİNİN MEDİADA ƏKS OLUNMASI

***Açar sözlər***: *Azərbaycan, Türkiyə, iqtisadiyyat, idxalat, ixracat, mətbuat*

***Keywords***: *Azerbaijan, Türkiye, economy, import, export, press*

Azərbaycan 1991-ci ildə öz müstəqilliyini qazandıqdan sonra, inkişaf istiqamətində bir çox addımlar atdı. Azərbaycan iqtisadiyyatında və geoiqtisadi-geosiyasi mövqeyində dönüş nöqtəsi, 20 sentyabr 1994-cü ildə "Əsrin müqaviləsi"nin bağlanması ilə başladı. Bu müqavilə, Azərbaycanın nəinki Türkiyə ilə, həmçinin Qərb ölkələri ilə əlaqələrinin önünü açdı və müstəqilliyinin artmasına təsir göstərən iqtisadi gəlirlər əldə etməyə imkan yaratdı.

SSRİ-nin süqutu və postsovet ölkələrinin müstəqillik qazanması, Türkiyə iqtisadiyyatının da önünü açdı. Çünki bu coğrafiya Türkiyə üçün böyük və əlverişli bir bazar idi. SSRİ-nin dağılmasından İran və Türkiyə kimi dövlətlər öz iqtisadiyyatlarını inkişaf etdirmək üçün istifadə etdilər. Bu baxımdan, Türkiyə üçün Azərbaycan və Orta Asiya ölkələrinə iqtisadi maraq artmağa başladı. Bu maraq, hər iki ölkə arasında iqtisadi inteqrasiya proseslərini dərinləşdirdi və Azərbaycanın yeni kapitalizm şəraitinə sürətlə keçid etməsini təmin etdi. Türkiyənin Azərbaycan üzərindən Orta Asiya türk dövlətləri ilə sosial-iqtisadi əlaqələr qurması sonradan Türk Dövlətləri Təşkilatının meydana çıxmasına şərait yaratdı. Bu əlaqələrin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

əsas mərkəzinin və təkanverici qüvvəsinin Azərbaycan olduğunu desək, yanlış olmaz.

Azərbaycanın ölkələrə görə ixracatında İtaliya öndə gedir. Ümumiyyətlə, Azərbaycanın ixracatında İtaliya və digər Avropa ölkələrinin yeri, onların neft-qaz tələbatı ilə bağlıdır. Türkiyə Azərbaycanın ölkələrə görə ixracatında ikinci yerdə dayanır. Azərbaycanın ölkələrə görə idxalatında Rusiya öndə gedir. Azərbaycandan Rusiyaya əsasən kənd təsərrüfatı malları idxal olunur. Türkiyə Azərbaycanın ölkələrə görə idxalatında ikinci yerdə dayanır.

Bütün dünya ölkələrinin (Rusiya istisna olmaqla), həmçinin, Türkiyənin Azərbaycandan idxal etdiyi əsas məhsullar neft-qaz sektoru ilə bağlıdır. Bir ölkənin 90% bir məhsulun ixracından asılı qalması, milli iqtisadiyyt üçün təhlükədir. Buna görə də, Azərbaycan, qeyri-neft sektorunun inkişafı istiqamətində irəliləyişlər əldə etməyə çalışır.

2005-2022-ci illərdə Azərbaycana ən çox sərmayə yatıran dövlət Türkiyə olmuşdur. Bu sərmayələr əsasən qeyri-neft sektorunu əhatə edir. Azərbaycanda fəaliyyət göstərən türk şir-kətlərinin əksəriyyəti ticarətlə və xidmət sahələri ilə məşğul olan kiçik və orta sahibkarlıq subyektləridirlər. Bu sahələrə materiallar və mənzil tikintisi xidmətləri, dəmir-polad, digər metallar, telekommunikasiya, bank və sığorta sektorları, qida istehsalı, təhsil, nəşriyyat, tekstil və tikiş sənayesi, nəqliyyat, avtomobil sənayesi, meşəçilik kimi müxtəlif sahələr aiddir.

Türkiyə inşaat şirkətləri 2017-ci ilə qədər Azərbaycanda ümumi dəyəri 11 milyard dollar olan 347 layihə həyata keçirmişdir. Bu layihələrin içində İmişli şəkər zavodu ən böyük layihədir. Bu gün Azərbaycanda 2600-ə yaxın türk şirkəti fəaliyyət göstərir və onlarda 25 mindən çox işçi çalışır.

2005-2022-ci illərdə Azərbaycana ən çox sərmayə yatıran dövlət Türkiyə olmuşdur. Eynilə, Türkiyədə bizneslə məşğul olan azərbaycanlı iş adamları həm firma sayına, həm də

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 52-55
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 52-55
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

sərmayə həcminə görə Türkiyəyə Qafqaz və Orta Asiya türk dövlətləri arasında ən çox sərmayə yatıran iş adamlarıdır. Bu sərmayələr əsasən enerji və sənaye sektoruna aiddir. İqtisadiyyatın digər sahələri üzrə də əməkdaşlıq əlaqələri inkişaf etməkdədir.

Azərbaycan Türkiyə iqtisadiyyatına 2006-2007-ci illərdə ən çox, 2008-2009-cu illərdə ən az sərmayə qoymuşdur. Çünki 2008-2009-cu illərdə dünyada iqtisadi böhran oldu. Azərbaycan valyutası manatın devalvasiyası ilə əlaqədar şirkətlərin maliyyə böhranı keçirməsi nəticəsində bir çox investorlar Azərbaycanda investisiyalarını geri götürdülər. Yəni, bu problemin kökü, əsasən qlobal maliyyə böhranı ilə əlaqədar olmuşdur.

Azərbaycanın Türkiyə iqtisadiyyatında oynadığı rol 2006-cı ildən artmağa başlamışdır. 2002-ci ildə əsası qoyulan və 2006-cı ildə açılışı olan BTC (Bakı–Tbilisi–Ceyhan) layihəsi, Azərbaycan neftini dünyaya ixrac etməklə yanaşı, Türkiyə üçün tranzit gəlirləri əldə etməyə (5 milyard ABŞ dolları), yeni iş imkanları qazanmağa və Türkiyənin strateji əhəmiyyətini artıran beynəlxalq əlaqələrinin genişlənməsinə şərait yaratdı. Bu kəmər, Azərbaycanın iqtisadi inkişafına və müstəqilliyinə mühüm töhvə verdi. BTC layihəsinin açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev demişdir: “Bakı–Tbilisi–Ceyhan müstəqilliyimizi möhkəmləndirəcək, ...belə olan halda, biz müstəqil siyasət apararaq xalqlarımızın rifahını yaxşılaşdıracaq, milli maraqlarımızı da inamla müdafiə edəcəyik”.

Azərbaycan və Türkiyə enerji əməkdaşlığı nəticəsində meydana çıxan TANAP layihəsi Türkiyənin təbii qaz ehtiyacının bir hissəsini qarşılamaqla yanaşı (6 milyard $m^3$), onun bir tranzit ölkə kimi Çin və Avropa Birliyi ilə münasibətlərində siyasi manevrlər etmək imkanlarını genişlətdi. Eynilə, bu geosiyasi və geoiqtisadi imkanlar Azərbaycan

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 52-55
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 52-55
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

üçün də mümkün oldu. Bakı–Tbilisi–Ceyhan neft kəməri (BTC), Bakı–Tbilisi–Ərzurum qaz kəməri (BTƏ) və Cənub Axını layihələri (TANAP) Türkiyə və Azərbaycanın yalnız iqtisadi deyil, həm də sosial-siyasi baxımdan bir-birinə yaxınlaşmasına şərait yaratmışdır.

8 noyabr 2020-ci ildə Azərbaycan ordusunun Qarabağı Ermənistanın işğalından azad etməsi, separatizmi bitirməsi, Azərbaycan-Türkiyə münasibətlərində yeni səhifə açdı. Bu çoxşaxəli münasibətlər içərisində iqtisadi əlaqələr də mühüm yer tutur. Qarabağın azad olunmuş ərazilərində müasir iqtisadi layihələrin həyata keçirilməsində Türkiyə şirkətləri öndə gəlir. Bu iqtisadi əlaqələrin strateji səviyyəyə yüksəlməsi, Zəngəzur dəhlizi məsələsinin həllini zəruri edir. Zəngəzur dəhlizi məsələsinin gündəmə gəlməsi isə, Ermənistanın da bu inteqrasiyaya cəlb olunması məqsədini daşıyır. Azərbaycan və Türkiyənin təklif etdiyi əməkdaşlıq layihəsi bölgədə inkişafa və sülhə xidmət edir. Nəticədə, Türkiyə və Azərbaycan əməkdaşlığı bölgədə iqtisadi inkişaf, sülh yaratmaqla yanaşı, onun üzərində formalaşan yeni geosiyasi, geoiqtisadi reallığı da özüylə gətirir.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 56-60
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 56-60
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**İlkin Mustafayev**
Gəncə Dövlət Universiteti
doktorant
1mustafayevilkin@gmail.com

# "1900-1903-CÜ İLLƏRDƏ QLOBAL BÖHRANIN PORTUQALİYANIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİNƏ TƏSİRİ

***Açar sözlər:*** *bank infilyasiyasıı, xarici siyasət, qlobal tənəzzül, borc yükü, korrupsiya*

***Keywords:*** *bank inflation, foreign policy, global recession, debt burden, corruption*

Böhran Portuqaliyanın daxili siyasətinə ciddi təsir göstərmiş, siyasi qeyri-sabitliyi və sosial gərginliyi artırmışdır (Silva, 2005, s. 99-101). İqtisadi çətinliklər əhali arasında narazılığın artmasına səbəb oldu ki, bu da etiraz əhval-ruhiyyəsinin və tətillərin artmasında özünü göstərirdi (Fishlow, 1985, s. 87-89). Liberal və cümhuriyyət hərəkatının bir çox nümayəndələri böhrandan monarxiya hökumətini səmərəsizlikdə, iqtisadi problemlərin öhdəsindən gəlməkdə acizlikdə ittiham etmək üçün səbəb kimi istifadə edirdilər (Silva, 2005, s. 102-104). Bu hisslər müxalif əhval-ruhiyyənin güclənməsinə və respublika ideyalarının getdikcə populyarlaşmasına kömək etdi ki, bu da son nəticədə monarxiyanın süqutuna və 1910-cu ildə Birinci Portuqaliya Respublikasının elan edilməsinə səbəb oldu. Beynəlxalq aləmdə böhran Portuqaliyanın xarici siyasətinə də ciddi təsir göstərmişdir (Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973), 2012, s. 53-55). Xarici kreditlərdən asılılığın artması Böyük Britaniya və Fransanın ölkə siyasətinə təsirinin artmasına səbəb oldu. Portuqaliya beynəlxalq ictimaiyyətin davamlı maliyyə-

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

ləşməsini və dəstəyini təmin etmək üçün əsas kreditorlarının maraqlarını nəzərə alan xarici siyasət yürütmək məcburiyyətində qaldı (Fishlow, 1985, s. 90-92). Bundan əlavə, maliyyə və iqtisadi problemlər Portuqaliyanın aktiv xarici siyasət yeritmək və müstəmləkələrdə maraqlarını qorumaq imkanlarını məhdudlaşdırırdı (Silva, 2005, s. 56-58). Maliyyə məhdudiyyətləri hökuməti Afrika və Asiya koloniyalarında hərbi və inzibati ehtiyaclar üçün xərcləri azaltmağa məcbur etdi ki, bu da bu ərazilərə nəzarətin zəifləməsinə və yerli əhali arasında narazılığın artmasına səbəb oldu (Fishlow, 1985, s. 93-95). Beləliklə, iqtisadi böhran Portuqaliyanın beynəlxalq aləmdə təsirinin azalmasına və daha güclü Avropa dövlətlərindən asılılığının artmasına səbəb oldu (Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973), 2012, s. 101-103).

**Böhranın sosial nəticələri:** 1900-1903-cü illərin qlobal maliyyə-iqtisadi böhranı Portuqaliyanın sosial quruluşuna ciddi təsir göstərdi. İqtisadi çətinliklər və maliyyə qeyri-sabitliyi əhalinin həyat şəraitinin pisləşməsinə, işsizliyin və yoxsulluğun artmasına, sosial qarşıdurmaların və etiraz hərəkatlarının kəskinləşməsinə səbəb olmuşdur (Rəis, 1993, s. 83-85).

**İşsizlik və yoxsulluq dərəcələri:**Böhran Portuqaliyada işsizlik səviyyəsinin kəskin artmasına səbəb oldu (Silva, 2005, s. 105-107). Sənaye müəssisələrinin bağlanması, kənd təsərrüfatı istehsalının azalması və ticarət fəallığının azalması minlərlə insanı işsiz qoydu (Fernandes, 2002, s. 88-90). Sənaye müəssisələrinin əksəriyyətinin cəmləşdiyi Lissabon və Porto kimi şəhərlərdə işsizlik xüsusilə kəskin problemə çevrilmişdir (Fishlow, 1985, s. 53-55). İşsizliyin artması yoxsulluğun artmasına və bir çox ailələrin həyat şəraitinin pisləşməsinə səbəb oldu (Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973), 2012, s. 34-36). İşsizlərin ən zəruri ehtiyaclarını belə ödəyə bilməməsi dilənçilərin və evsizlərin

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

sayının artmasına səbəb olurdu (Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973), 2012, s. 59-61). İşsizliyin artması fonunda əhalinin real gəlirlərində də azalma müşahidə olunurdu (Valerio, 2001, s. 130-132). İşini saxlaya bilənlər çox vaxt əmək haqqının azaldılması və iş şəraitinin pisləşməsi ilə üzləşirdilər (Rəis, 1993, s. 86-88). Bu, onsuz da aşağı maaşdan və sosial təminatsızlıqdan əziyyət çəkən fəhlə sinfinə çox təsir etdi. Böhran sosial bərabərsizliyi daha da pisləşdirdi, varlılar və kasıblar arasındakı uçurumu genişləndirdi. Portuqaliya cəmiyyətinin mühüm hissəsini təşkil edən kənd əhalisi də iqtisadi böhrandan əziyyət çəkirdi (Fernandes, 2002, s. 91-93). Şərab və zeytun yağı kimi əsas kənd təsərrüfatı məhsullarının qiymətlərinin aşağı düşməsi bir çox kiçik fermerlərin və kənd təsərrüfatı istehsalçılarının məhvinə səbəb oldu (Valerio, 2001, s. 133-135).

Nəticədə bir çox kəndlilər borca düşdülər, kreditorların borcunu ödəmək üçün torpaqlarını və əmlaklarını satmağa məcbur oldular (Rəis, 1993, s. 89-91). Bu, kənd əhalisinin iş dalınca şəhərlərə miqrasiyasının artmasına şərait yaratdı, bu da şəhər yerlərində sıxlığa və həyat şəraitinin pisləşməsinə səbəb oldu (Fishlow, 1985, s. 56-58).

**Sosial qarşıdurmaların və etiraz hərəkatlarının kəskinləşməsi:** İqtisadi böhran Portuqaliyada sosial qarşıdurmaların kəskinləşməsinə və etiraz hərəkatlarının güclənməsinə səbəb oldu (Rəis, 1993, s. 92-94). İşsizliyin, yoxsulluğun və sosial bərabərsizliyin artması fəhlə və kəndlilər arasında narazılığın artmasına səbəb oldu (Silva, 2005, s. 107-109). İş şəraitinin yaxşılaşdırılmasını, əmək haqqının artırılmasını və sosial təminatların genişləndirilməsini tələb edən fəhlə birlikləri və siyasi təşkilatlar formalaşmağa başladı (Silva, 2005, s. 108-110). Etiraz hərəkatları getdikcə daha kütləvi və mütəşəkkilləşdi (Fishlow, 1985, s. 59-61). Lissabon və Porto kimi böyük

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

şəhərlərdə işçilər tərəfindən iş şəraitinin yaxşılaşdırılması və maaşların artırılması tələbi ilə çoxsaylı tətillər və nümayişlər keçirilirdi. Bu etirazlar tez-tez polis və hakimiyyət orqanları ilə toqquşmalarla müşayiət olunur, zorakılığa və həbslərə səbəb olur (Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973), 2012, s. 37-39). Siyasi islahatların və cəmiyyətin demokratikləşməsinin tərəfdarı olan ziyalılar və liberal dairələr arasında da hökumət siyasətindən narazılıq artırdı. Kənd yerlərini də iğtişaşlar bürümüşdü (Rəis, 1993, s. 95-97). Kənd təsərrüfatı məhsullarının qiymətinin aşağı düşməsi, fermerlərin bərbad vəziyyətə düşməsi və həyat şəraitinin pisləşməsi kənd yerlərində etirazlara səbəb oldu (Valerio, 2001, s. 136-138).

Bir çox kəndlilər torpaq islahatı və torpaqların ədalətli şəkildə yenidən bölüşdürülməsini tələb edirdilər ki, bu da hökumət əleyhinə əhval-ruhiyyənin artmasına səbəb oldu (Silva, 2005, s. 110-112).

Nəticədə 1900-1903-cü illər böhranının sosial nəticələri Portuqaliya cəmiyyətində ciddi dəyişikliklərə səbəb oldu (Fishlow, 1985, s. 62-64). İqtisadi çətinliklər sosial bərabərsizliyi daha da gücləndirdi və sosial münaqişələri kəskinləşdirdi ki, bu da sonrakı siyasi dəyişikliklər üçün zəmin yaratdı və cəmiyyəti sonrakı onilliklərdə baş verən dərin sosial və siyasi transformasiyalara hazırladı (Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973), 2012, s. 113-115).

Xüsusilə, bu hadisələr cümhuriyyət əhval-ruhiyyəsinin artmasına və siyasi hərəkatların yüksəlişinə mühüm təsir göstərmiş, nəticədə 1910-cu il inqilabı və monarxiyanın süqutu ilə nəticələnmişdir.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

## Ədəbiyyat

1. Fernandes, J. M. (2002). Portuqaliyanın İqtisadi Tarixi: Qısa Baxış. Cambridge University Press.
2. Valerio, N. (2001). Portuqaliya bank sisteminin tarixi. Lissabon: Banco de Portugal.
3. Rəis, J. (1993). 19-cu əsrdə Portuqaliya İqtisadiyyatı: Struktur Dəyişikliklər və Maliyyə Sisteminin Təkamülü. Lissabon: İmprensa Nacional.
4. Silva, A. (2005). Portuqaliyanın Siyasi İqtisadiyyatı: Monarxiyadan Respublikaya. Lissabon: Instituto de Ciências Sociais da Universidade de Lisboa.
5. Fishlow, A. (1985). Latın Amerikası və Cənubi Avropada İdxal Əvəzetməsinin Mənşəyi və Nəticələri. Princeton University Press.
6. Qeyri-kamil, lakin çətin rəqabət: Qızıl əsrdə Portuqaliya bank sektoru (1950-1973). (2012). Luciano Amaral, Nova Biznes və İqtisadiyyat Məktəbi.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 61-63
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 61-63
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

# TƏBİƏT ELMLƏRİ

# NATURAL SCIENCES

**Movsum Ahmadov**
Baku State University
Master student
movsumwork@gmail.com

## MICROBIAL DIVERSITY OF OIL-POLLUTANT SOILS

***Keywords:*** *microbiology, microorganisms, oil pollution, micromycete, fungi*

***Açar sözlər:*** *mikrobiologiya, mikroorqanizmlər, neft çirklənməsi, mikromisetlər, göbələklər*

It is known that soil microorganisms are formed by bacteria and fungi, which have been the object of various studies for many years. As a result of our research, we have identified more effective ways to determine soil microorganisms from samples, as well as the connection between soil contamination with petroleum products and the quantitative ratio of bacteria to fungi.

According to modern scientific concepts, soil is a biological and biochemical system, one of the main components of which is soil microbiota. Soil microorganisms, which are an integral part of biogeocenoses, participate in the global circulation of substances and energy in the biosphere. The fertility of soils, the quality and productivity of cultivated plants, i.e., largely depend on their development and vital activity. They play a leading role in the decomposition of plant residues, in the synthesis and decomposition of humus, the formation of the phytosanitary state of the soil, the accumulation of biologically

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

active substances in it (enzymes, vitamins, antibiotics, etc.), and the fixation of atmospheric nitrogen (Ismailov, 2006: 157-165). Due to the extreme importance of soil microorganisms, studying the transformation of oil released into the soil as a result of an accident is extremely important for understanding changes in the microbiota. It is worth noting that one of the active components of the soil is also actinomycetes, which represent a single link in the trophic chain of the ecosystem, while performing the functions of decomposer microbes and taking an active part in the decomposition of such complex polymers as lignin, chitin, cellulose, humus compounds and etc. (Abushov, 2004: 54).

The purpose of the work is to study the microbial diversity of anthropogenically disturbed biotopes of the Absheron Peninsula and select a method for their accurate determination. All experiments involving the isolation of microorganisms from contaminated soil samples used 30-minute stirring at room temperature. We also used nutrient medium (agar) that differed in the quantitative composition of nutrients, ultrasonic treatment of samples, and relationships between different groups of microorganisms. From the soil samples taken, we prepared an aqueous suspension (30 minutes) and before sowing, treated it with ultrasound for 15, 30 and 60 minutes, for which we used a disintegrator with a power of 400-500 kW. The samples were kept in physiological solution for 2 hours. It is worth noting that the nutrient media used not only affected the number of microorganisms, but also had an impact on qualitative changes. For example, ultrasonic treatment on the Meat-Peptone Agar medium promotes the intensive development of cocci and gram-negative bacteria, and on Peptone Agar (PA) - corynebacteria and spore-formers.

During the work, it was found that the number of bacteria in the oil-contaminated soils of Absheron is characterized by

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

higher rates compared to fungi. An increase in the degree of soil contamination has a stronger effect on the quantitative indicator characterizing the numerical composition of micromycetes, and also that the processing of samples with ultrasound when studying the microbial diversity of oil-contaminated soils, as well as various plant materials, allows for a more accurate assessment of the numerical composition of microorganisms.

## References

1. Ismailov, N.M. (2006). Biogennye resursy samo-ochishchayushchei sposobnosti pochv Azerbai-dzhana pri zagryaznenii organicheskimi veshchestvami./Trudy Ins-tituta Mikro-biologii NAN Azerbaidzhana. Baku: “EhlM”, t.3, s.157-165.
2. Abushov, R.A. (2004). Fiziologo-biokhimicheskie svoistva aktinomitsetov Azerbaidzhana i ego narodnokhozyaist-vennoe znachenie. Avtorefe-rat dissertatsii na soiskanie uchenoi stepeni doktor biologiche-skikh nauk. Baku, 54 s.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 64-66
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 64-66
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Movsum Ahmadov**
Baku State University
Master student
movsumwork@gmail.com

# SEASONAL DYNAMICS OF THE NUMBER OF ACTINOMYCETES

***Keywords:*** *microbiology, microorganisms, oil pollution, micromycete, fungi*
***Açar sözlər:*** *mikrobiologiya, mikroorqanizmlər, neft çirk-ənməsi, mikromisetlər, göbələklər*

Actinomycetes belong to prokaryotic organisms, i.e. to bacteria and at some stages of development have the ability to form branching mycelium with different diameters. When identifying the main characteristics, color, the presence or absence of aerial and substrate mycelium, branching of spore-bearing plants, the number of spores formed, the shape of spore-bearing plants, the type, shape and surface of spores, the formation of soluble and melanoid pigments are considered. Over the years, various studies have been carried out and a number of issues related to the patterns of distribution, growth and development of actinomycetes have been clarified (Li, Terekhova, Alferova, Galatenko, Gapochka, 2003: 131-135). However, these factors do not affect each organism individually, but together with other factors and living beings. This, in turn, when studying various organisms, primarily microorganisms, retains the relevance of the principle "a specific approach for a specific organism." In addition, the use of a method based on pre-treatment of samples with ultrasound reveals new properties of actinomycetes, both quantitative and qualitative, which also contributed to the continuation of

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

research in the above aspect. It should be noted that environmental factors (temperature, acidity, light, aeration, humidity, etc.) during the life cycle of mushrooms also have an impact, which primarily affects the nature and characteristics of processes associated with growth and development, since the growth rate mushrooms is one of the leading indicators of the response of fungi to the influence of environmental factors. In further work, we studied changes in the number of actinomycetes depending on the season of the year. The results obtained showed that the number of actinomycetes is closely related to changes in the seasons of the year and the highest rate is found in autumn. In winter, the number of actinomycetes is almost 2 times less than in autumn. It should be noted that the degree of change in the number of actinomycetes depending on the season of the year is characterized by low rates compared to other microorganisms, especially fungi. For example, the difference in fungi depending on the season of the year is 5.4 times, which is apparently due to the fact that actinomycetes adapt relatively quickly to unfavorable conditions (Preobrazhenskaya, Agre Kalakutskii, 1978: 84-103). There are a number of works in the literature devoted to changes in the number of microorganisms depending on the seasons of the year, and all the data obtained show that the number of microorganisms increases in summer and decreases in winter. However, a number of studies have shown that not only the numerical composition, but also the species composition of microorganisms is subject to seasonal changes, i.e. there are “seasonal” microorganisms. The data obtained showed that 37 species of actinomycetes are found on lightly contaminated soils throughout the year, which is typical for spring and autumn. Among the discovered species there are also “seasonals”, although their number is relatively small, only 5 species (Act.olivatus, Act.phenotolerans, Ch. fumigata,

**Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 64-66**
**Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 64-66**
**DOI: https://doi.org/10.36719/2663-4619/2024/V**

S.noursei and S.varsoviensis). An interesting fact is that these 5 species are not dominant in terms of frequency of occurrence (Table 4.1); all these species are not found only in winter, although the species Act.olivatus takes part in the formation of actinomycete biota in lightly contaminated soils in the summer. It should be noted that changes in the number of microorganisms depending on the season of the year are sometimes inconsistent and this is facilitated by the type of soil and the type of transition (temperate or continental) of climate from one season to another.

## References

1. Li, YU.V., Terekhova, L.P., Alferova, I.V., Galatenko, O.A., Gapochka, M.G. (2003). Primenenie suktses-sionnogo analiza v kombinatsii s KVCH-izlucheniem dlya selektivnogo vydeleniya aktinomitsetov iz pochvy.// Mikrobiologiya, t.72, №1, s.131-135.
2. Preobrazhenskaya, T.P., Agre N.S., Kalakutskii L.V. (1978). Novye formy aktinomitsetov // Uspekhi mikrobiologii. M.: Nauka, № 13, s. 84-103.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 67-70
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 67-70
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

**Sevda Əliyeva**
Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi
Təbii Ehtiyatlar İnstitutu
dissertant
sevda.aliyeva@2022mail.ru

# NATRİUM TİOSTİBATDAN MİS(II) TİOSTİBATIN ALINMA ŞƏRAİTİNİN TƏDQİQİ

***Açar sözlər:*** *natrium tiostibiat, mis(II) xlorid, mis tiostibiat, kimyəvi analiz, parametrlər, qatılıq.*

***Keywords:*** *sodium thiostibiate, copper(II) chloride, copper thiostibate, chemical analysis, parameters, hardness.*

Mis stibium sulfidin $Cu_3SbS_3$ nazik təbəqələri, tərkibində ($CuCl_2$, $2H_2O$), $SbCl_3$ və $Na_2S_2O_3$ olan sulu məhlulda kimyəvi çökdürmə üsulundan istifadə etməklə şüşə altlıq üzərində çökdürüldür. $Cu_3SbS_3$ nazik təbəqələrinin quruluş və optiki xassələri RFA, Raman spektroskopiyası, UV-Vis spektrofotometriyası və Skan edən Elektron Mikroskopu (SEM) vasitəsi ilə xassələri öyrənilmişdir. [57, s.195-200]

Sistemdə əmələ gələn $Cu_3SbS_4$ mikroskopik xüsusiyyətlərinin optiki və fotovoltaik parametrlərə təsirini təhlil edən Cesar [64, s. 7959-7965] belə bir qənaətə gəlir ki, birləşmənin yüksək absorbsiya əmsalına malik olmasının səbəbi S-S və Sb-Sb keçidlərinin yüksək qatqısıdır. Bunun nəticəsi olaraq müxtəlif fotovoltaik tətbiqlər üçün bu birləşmənin böyük potensiala malik olduğunu göstərir.

Müxtəlif şəraitlərdə $Sb_2S_3$-Cu materiallarının sürətli termiki emalı (RTP) və tavlanması yolu ilə mis stibium sulfid $CuSbS_2$ birləşmələrinin nazik təbəqələri hazırlanmışdır Cu təbəqəsinin qalınlığını, eləcə də temperaturu dəyişdirməklə sistemli araşdırma aparılmışdır. Müxtəlif şəraitdə əmələ gələn nazik

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

təbəqələrin kristal quruluşu, morfologiyası, element tərkibi, kimyəvi analizi və fiziki xassələrini müəyyən etmək üçün müxtəlif üsullardan istifadə edilmişdir. [127, s.19-27]

**Tədqiqat**

Mis ionlarının miqdarı ekvivalent miqdardan az olduqda əmələ gələn çöküntü mis tiostibiatla stibium(V) sulfidin qarışığından ibarət olur və məhluldan yaxşı ayrılmır. Mis(II) xloridin ekvivalent və ondan artıq miqdarında, yəni 30-40 ml həddində götürülməsi alınan nümunənin nəzəri kütləsi ilə onun təcrübi kütləsi bir-birinə uyğunluq təşkil edir cədvəl 1-də verilmişdir.

**Cədvəl 1.**
**Mis(II) xlorid miqdarının mis tiostibiatın əmələ gəlməsinə təsiri.**
**[$Na_3SbS_4$] $1 \cdot 10^{-1}$ M, [CuCl] = $1 \cdot 10^{-1}$ M. Tem-r. 313 K**

| S № | $Na_3SbS_4$, ml | CuCl, ml | pH | $Cu_3SbS_4$ -ün nəzəri küt.,mq | $Cu_3SbS_4$ -ün təcrübi küt., mq |
|---|---|---|---|---|---|
| 1 | 10.00 | 25 | 3-4 | 441.7 | 418.91 |
| 2 | 10.00 | 30 | «__» | «__» | 434.43 |
| 3 | 10.00 | 35 | «__» | «__» | 439.45 |
| 4 | 10.00 | 40 | «__» | «__» | 438. 90 |

Nümunənin termoqramı çəkilmiş və nəticələr şəkil 1-də verilmişdir.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 67-70
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 67-70
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V




Şəkildən göründüyü kimi, birləşmə hava oksigeni mühitində 1100 K temperatura qədər qızdırılmışdır. Nəzəri olaraq hesalamalara görə, 20 mq nümunədə ($Cu_3SbS_4$) kükürd 5.79 mq təşkil edir. Təcrübi olaraq 573 K temperaturda nümunənin kütləsi 3,38 mq azaldığından bu itkinin kükürd olduğunu demək olar. Sonrakı temperaturlarda nümunənin kütləsi artmışdır. Mis(I) tiostibiat nümunələri aşağıda verilən metodika üzrə kimyəvi analiz edilmişdir. Məlum miqdarda nümunə nitrat turşusunda qızdırılmaqla həll edilir.

**Cədvəl 2.**
**Mis tiostibiatın kimyəvi analizi.**

| Nümunə, $Cu_3SbS_4$, q | Elementlərin miqdarı, q | | | | | |
|---|---|---|---|---|---|---|
| 0,4417 | Cu | | Sb | | S | |
| | nəz. | təc. | nəz. | təc. | nəz. | təc. |
| | 0,192 | 0.1907 | 0,1217 | 0,1183 | 0,1280 | 0,1244 |

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

## Ədəbiyyat

1. Bouaniza, N., Hosni, N., Maghraoui-Meherzi, H. (2008). Structural and optical properties of $Cu_3SbS_3$ thin film deposited by chemical bath deposition along with the degradation of methylene blue. Surface and Coatings Technology Volume 333, 15 January, pp. 195-200.
2. Crespo, C.T. (2016). Microscopic Optical Absorption, Analysis, and Applications of Famatinite Cu3SbS4. Journal of Physical Chemistry C, 120, 15, pp. 7959-7965.
3. Vinayakumar, V. (2017). $CuSbS_2$ thin films by rapid thermal processing of $Sb_2S_3$-Cu stack layers for photovoltaic application. D. Avellaneda, T.K. Das Roy, G. Castillo, A.A. Martinez, B. Krishnan. Solar Energy Materials and Solar Cells. Volume 164, pp. 19-27.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 71-74
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 71-74
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

# TEXNİKA ELMLƏRİ

# TECHNICAL SCIENCES

**Vilayət Məmmədov**
Azərbaycan Dövlət Aqrar Universiteti
texnika elmləri namizədi
vilayat7@mail.ru
**Mirzə Mustafayev**
Azərbaycan Dövlət Aqrar Universiteti
mirza.rza@mail.ru
**Hüsniyyə Yusifova**
Azərbaycan Dövlət Aqrar Universiteti
husniyyeyusifova78@gmail.com

## YAŞILLAŞDIRILMIŞ MƏKANLARIN MEMARLIQ – LANDŞAFT HƏLLİNİN FORMALAŞMASINA TƏSİR EDƏN AMİLLƏR

***Açar sözlər:*** *şəhər, landşaft, məkan, ekologiya, rekonstruksiya, model*
***Keywords:*** *city, landscape, space, ecology, reconstruction, model*

Tezisdə Şəmkir şəhərinin yaşıllaşdırılmış məkanları götürülüb. Əsas məqsəd şəhər əhalisinin istirahət fəaliyyəti üçün optimal şərait yaratmaq, yaşıllaşdırma məkanlarının memarlıq – landşaft həllini öyrənməkdir. Yaşıllaşdırma məkanlarının istirahət zonalarının memarlıq – landşaftına təqdim olunan elmi prinsipləri, üsul və modellər həyata keçirilir. Şəhərin yaşıllaşdırılmış məkanlarının struktur yaradıcı sistemlərinin inkişaf modelləri, onlardan istifadə olunmasının şəhərsalma və ekologiya reqlamentlərini təklif edilir.

Elm və Təhsil Tədqiqatları V Respublika Elmi Konfransı / 19 iyul 2024 / 71-74
Research in Science and Education V Republican Scientific Conference / 19 july 2024 / 71-74
DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

Müasir şəhərlərin intensiv böyüməsinə müvafiq olaraq, onların təbii resurslarının tənəzzül səviyyəsi də yüksəlir. Bu da ki, şəhərlərin bir təbii antropoloji sistem kimi ekoloji durumun pozulmasına və rekreasiya üçün yararlı ərazilərin azalmasına gətirib çıxarır.

Şəmkirdə şəhər landşaftının təbii komponentlərinin qorunması və artırılması, yaşıllaşdırma xidmətinin yüksək səviyyəsinin təmin edilməsi şəhər əhalisinin yaşam keyfiyyətini təyin edir.

Şəmkir şəhərinin landşaft və memarlığı, bağ – park quruculuğu landşaft memarlığı pozisiyasından bu vaxta kimi tədqiq edilməmişdir. Şəhərin müasir inkişaf mərhələsini və landşaft mühitinin uzun ömürlülüyünü nəzərə alaraq mövzunun işlənməsi aktuallığı aydın görünür.

Şəhər ətrafı ərazilər çoxsaylı təbii landşaft potensialına malikdirlər, şəhər landşaftının tarixi tiplərini özlərində əks etdirirlər və müasir şəhər mühitinin identifikasiyası üçün bir əsas kimi götürülə bilər. Lakin bu ərazilər gərgin texnogen təzyiqə məruz qalmışlar və təsəvvürün yüksək səviyyəsi ilə xarakterizə edilirlər.

Landşaftın tətbiqinə şəhərsalma mövqeyindən yanaşma xüsusiyyətləri layihələndirmə ilə müəyyənləşdirilir. Qarşılıqlı əlaqəli komponentlər sistemi kimi landşaftın hərtərəfli təhlili coğrafiya elmi üçün xarakterikdir. Burada şəhərsalma obyektlərinin istismarı və tikintisi üçün böyük əhəmiyyətli olan komponentlər tədqiq olunur.

İşin məqsədi. Şəmkir şəhərinin strukturunda təşkilin əsas metod və prinsiplərini, onların həyata keçirilmə vasitələrini, fəaliyyət modellərini özündə əks etdirən istirahət zonasının landşaft – şəhərsalma yenidənqurmasına elmi əsaslandırılmış yanaşmanın işlənib hazırlanmasıdır.

Şəmkir şəhər tikilişinin rekonstruksiya prosesində süni landşaft mühiti baş kompozisiya oxunun su-yaşıllıq məkanı

əsasında formalaşan tarixi formalaşmış mərkəz özəyinin memarlıq-məkan vəhdətini təmin edir. Həmin bu açıq məkanlar daxili panoramların genişlənməsinə imkan verir və Şəmkir şəhərinin nümunəviliyini nəzərə çarpdıran dərin perspektivlərin yaranmasına imkan verir (Verqunov, Denisov, Ojeçov,1991).

Abadlaşdırma tədbirləri mikroiqlimi tənzimləməli, insanları zərərli külək, günəş, yağıntı və temperatur dəyişikliklərinin təsirindən qorumalı, avtomobillərin saxlanmasını və piyadaların təhlükəsizliyini təmin etməlidir. Burada abadlaşdırma elementləri müxtəlif pavilyonlarla, kölgəliklərlə, ekranlarla, baryerlərlə, çəpərlərlə, örtüklərlə, oyun və idman meydançaları ilə, texniki və sanitar qurğularla təmsil edilməlidir (Rodiçkin, 2007).

Bu məqsədlərlə bütün abadlaşdırma elementləri tətbiq edilə bilər. Memarlıq-planlaşdırma nöqteyi-nəzərindən bu məsələlər öz əksini yuxarıda qeyd edilən tələblərdə tapmış və çoxproqramlı Şəmkir şəhər mühitinin landşaft memarlığı üsulları ilə onların təmin edilmə vasitəsi kimi çıxış edir.

Beləliklə, ayrı-ayrı açıq mərkəz məkanlarının formalaşması konkret şəhərsalma, landşaft və sosial-mədəni şəraitlərin nəzərə alınması ilə onların müəyyən edilən ümumi memarlıq-landşaft təşkili tələblərinin və istiqamətlərinin, həmçinin də yuxarıda açıqlanan prinsiplərin əsasında həyata keçə bilər (Bakutie, 2009).

Şəmkir şəhər strukturunda yaşıllaşdırılmış məkanların təşkilinə təsir edən amillərin kompleks qiymətləndirilməsi, şəhər mühitinin planlaşdırma və funksional təşkilində, ekoloji münasibətləşdirilməsində landşaftların potensialı və onların rolu, kompleks yaşıllaşdırma məkanların baş planlarda təklif olunmuş mümkün tipoloji modelləri irəli sürülmüşdür.

DOI: https://doi.org/10.36719/2663-4619/2024/V

## Ədəbiyyat

1. Verqunov, A.P., Denisov M.F., Ojeçov S.S. (1991). Landşaftnoe proektirovanie.Vıssaya şkola.
2. Rodiçkin, İ.D. (2007). Çelovek, sreda, otdıx. Kiev, Budivilnik.
3. Bakutie, M.Q. (2009). İnteresnoe blaqoustroysto qorodiskix territoriy.M.,Stroyizdat.

# İÇİNDƏKİLƏR

## HUMANİTAR VƏ İCTİMAİ ELMLƏR

## HUMANITIES AND SOCIAL SCIENCES

**Vahid Məmmədov**
Azərbaycan musiqi tarixində və inkişafında bəstəkar Süleyman Ələsgərovun rolu.................................................... 7
**Gunel Allahverdiyeva**
Ritual concepts in Azerbaijani and Russian languages ...........11
**Sevinc Əsgərova**
Azərbaycan bəstəkarı Cövdət Hacıyev yaradıcılığının ümumi xasiyyətnaməsi ..........................................................15
**Sevda Məsimzadə**
Yeniyetməlik dövründə emosional intellektin rolu .................19
**Samirə Həsənova**
Rus sentimentalizminin səciyyəvi cəhətləri. N.M.Karamzinin "Zavallı Liza" əsəri ....................................22
**Gülsabah Əmirova**
Tələbələrdə liderlik keyfiyyətlərinin inkişafı problemləri ......26
**Elzanə Musayeva**
Reklam diskursunun təhlili ....................................................30
**Anna Gruzina, Nuranə Musayeva, Lətifə Məmmədova**
Publisistik üslubun xüsusiyyətləri ...........................................33
**Təranə Hüseynova**
Asəf Zeynallının yaradıcılığında Azərbaycan musiqisinin təbliği ..........................................................................................35
**Vüsalə Hümbətova**
Dünyanın dil mənzərəsi, metaforik neologizmlər və keçid məsələləri ..................................................................39

**Fatma Saralova**
Azərbaycan Xalq Cümhuriyyətinin parlament dili.
Dövlət qurucularının dilə münasibəti ....................................44
**Xəqani Cəfərli**
ABŞ-ın Əfqanıstanda beynəlxalq humanitar qaydalara
riayət etməsi və müharibəyə təsiri (2001-2015-ci illər) ..........48
**Mübariz Göyüşlü**
Azərbaycan və Türkiyə iqtisadi münasibətlərinin
mediada əks olunması ..........................................................52
**İlkin Mustafayev**
"1900-1903-cü illərdə qlobal böhranın Portuqaliyanın
daxili və xarici siyasətinə təsiri ..............................................56

## TƏBİƏT ELMLƏRİ

## NATURAL SCIENCES

**Movsum Ahmadov**
Microbial diversity of oil-pollutant soils ................................61
**Movsum Ahmadov**
Seasonal dynamics of the number of actinomycetes ..............64
**Sevda Əliyeva**
Natrium tiostibatdan mis(ii) tiostibatın
alınma şəraitinin tədqiqi……………………………………..67

## TEXNİKA ELMLƏRİ

## TECHNICAL SCIENCES

**Vilayət Məmmədov, Mirzə Mustafayev, Hüsniyyə Yusifova**
Yaşıllaşdırılmış məkanların memarlıq – landşaft həllinin
formalaşmasına təsir edən amillər .........................................71

İmzalandı: 16.07.2024
Kağız formatı: 60x84 1/16
H/n həcmi: 5 ç.v.
Sifariş: 780

www.aem.az saytında çap olunub.
Ünvan: Bakı şəh., Mətbuat prospekti, 529-cu məh.
“Azərbaycan” nəşriyyatı, 6-cı mərtəbə
Tel.: +994 50 209 59 68
+994 55 209 59 68
+994 12 510 63 99
e-mail: info@aem.az